**EVDƏ QAL, SAĞLAM QAL!**

**“Cənab Prezident, xalq üçün etdikləriniz Sizə olan inam və güvəni daha da möhkəmləndirdi”**



Bax 4

**Yeni Azərbaycan Partiyası pandemiya şəraitində beynəlxalq əməkdaşlığı davam etdirir**



Bax 3



**“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir**


# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 067 (6032) 23 aprel 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezidentdən məmurlara və sahibkarlara növbəti mesaj

*Dövlət başçısı cinayət törədənlərin bundan sonra da cəzalandırılacağını bildirib*



## “Ermənistan xarici işlər nazirinin destruktiv açıqlaması danışıqlar prosesinə ciddi zərbədir”



“Ermənistanın xarici işlər naziri sözügedən açıqlaması ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin üstündən xətt çəkir...”

Bax 3

## Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürülən ianələrin məbləği açıqlanıb

Bax 5



Koronavirusla Mübarizəyə Dəstək Fonduna indiyədək köçürülən ianənin məbləği məlum olub. SİA-nın məlumatına görə, bu günə kimi Fonda 112 849 265 manat vəsait köçürülüb. İanə köçürən şəxslər arasında 3150 hüquqi, 10 508 fiziki şəxs var. Xatırladaq ki, Koronavirusla Mübarizəyə Dəstək Fondu Prezident İlham Əliyevin fərmanı ilə martın 19-da yaradılıb.

## “Karantin rejimindən sonra şəhid ailələrinə və müharibə əlillərinə mənzillər veriləcək”



*Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə, habelə Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə keçirdiyi iclasda dövlət başçısının sosial sahə ilə bağlı ...*Bax 6

## “Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi fəal müzakirə olunur”

Bax 7



Ötən il Rusiya, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlikləri başçılarının Moskva görüşündə təklif olunan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə qərarlar fəal müzakirə edilir, onların imzalanması BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası istiqamətində mühüm addım olardı. AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bu fikri...

**Ölkədə 38 nəfər virusa yoluxub, 42 nəfər sağalıb**



Bax 3

**“Hər formada yaramazlığa və təxribata əl atırlar”**



Bax 14

**“Beşiktaş” Loris Kariusa qapını göstərdi**



Bax 16

# Prezidentdən məmurlara və sahibkarlara növbəti mesaj

## *Dövlət başçısı cinayət törədənlərin bundan sonra da cəzalandırılacağını bildirib*

***Prezident İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası sayəsində ölkənin tərəqqisində yüksək dinamizm təmin olunmuşdur. Ölkə başçısı işlək mexanizmlər əsasında islahatların davamlılığını, ardıcıllığını təmin etmişdir, ictimai həyatın bütün sahələrində intibah və tərəqqinin əsasını qoymuşdur. İqtisadi inkişafı stimullaşdıran perspektivli layihələrin reallaşdırılması, bölgələrimizin tarazlı inkişafına hesablanan mühüm dövlət proqramlarının yerinə yetirilməsi, ölkədə bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, xarici investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin maddi rifah halının yaxşılaşdırılması aparılan düzgün iqtisadi siyasətin nəticələridir.***




“İndi biz iqtisadi sahə ilə bağlı, əlbəttə, öz addımlarımızı elə atmalıyıq ki, hazırkı çətin şəraitdə iqtisadi fəallığı müəyyən mənada qoruyub saxlayaq”. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında keçirdiyi iclasda deyib.

Dövlət başçısının sözlərinə görə, hər kəs yaxşı bilir ki, demək olar bütün ölkələr indi pandemiya ilə əlaqədar öz sərhədlərini bağlayıblar, ancaq ticarət və yük daşımaları sahəsində işlər davam edir.

“Düzdür, indi ticarət obyektləri bağlı olduğu üçün burada tənəzzül var. Yükdaşımalarda isə vəziyyət nisbətən normaldır. Əlbəttə ki, iqtisadi sahədə apardığımız siyasət və iqtisadi sabitlik pandemiyaya qarşı mübarizədə bizə əlavə imkanlar yaradır. Bu ilin 3 ayının yekunları haqqında biz üç gün bundan əvvəl danışdıq, təkrar etmək istəmirəm. Hələ ki, müsbət dinamika var. Ancaq istisna olunmur ki, aprel, may, iyun aylarında tənəzzül müşahidə ediləcək. Çünki biz iki ayın yekunlarını üç ayın yekunları ilə müqayisə edəndə görürük ki, həm ümumi daxili məhsulda azalma var, eyni zamanda, qeyri-neft sektorunda tənəzzül var. Baxmayaraq, hələ ki, biz artımı görürük, ancaq növbəti aylarda necə olacaq, əlbəttə, bu da karantin rejiminin nə vaxta qədər davam etməsinə bağlıdır”, - deyə Prezident İlham Əliyev bildirib.

Dövlət başçısı, onu da qeyd edib ki, bu karantin rejimi hər bir ölkənin iqtisadiyyatına çox mənfi təsir göstərir və bu təsir nə qədər davam edəcək, biz bunu deyə bilmərik: “Əlbəttə, qeyd etdiyim kimi, indiki şərait bundan sonra iqtisadi sahədə qanunları pozmaq istəyənlərin üzərinə çox böyük mənəvi yük qoyacaqdır. Çünki bir daha demək istəyirəm ki, indiki şəraitdə dövləti aldatmaq cəhdləri xəyanətə bərabər tutulacaqdır. Ona görə siz sahibkarlarla müntəzəm əlaqə saxlayın, o cümlədən maarifləndirmə, onların vicdanla fəaliyyət göstərməsi ilə əlaqədar mütləq təmasları davam etdirin. Bir daha onlara göstərilməlidir ki, dövlət nə qədər böyük yükü öz üzərinə götürüb. Mən indi Azərbaycanı heç kimlə müqayisə eləmək istəmirəm, amma baxın görün, bu pandemiyadan zərər çəkmiş sahələrdə işləyənlərin əməkhaqqı dövlət tərəfindən ödənilir, 300 min adamdır, az deyil. Mikrosahibkarların da sayı 300 minə yaxındır, onlara da dövlət tərəfindən vəsait ödənilir. İndi vergi güzəştləri, vergi tətilləri ilə bağlı mən göstəriş vermişəm və istəyirəm ki, siz bu məsələ ilə bağlı məlumat verəsiniz, hansı tədbirlər hazırlanıb və bu paket Milli Məclisə nə vaxt təqdim ediləcək”.

### “Kimsə vəzifədə olan dostlara arxalanırsa...”

Dövlət başçısı qeyd edib ki, bir çox sahibkarlar artıq kölgə iqtisadiyyatından çıxıb, ağ iqtisadiyyatda fəaliyyət göstərir, dövlətin vergisini ödəyir, qeyri-formal məşğulluğu artıq öz gündəliyindən çıxarıb: “Ancaq elə sahibkarlar var ki, hələ də hesab edirlər ki, bunlar köhnə qayda ilə işləyəcəklər. Onlara mən birmənalı demək istəyirəm ki, bu keçməyəcək və heç kim onlara kömək etməyəcək. Əgər kimsə hansısa tanışlara, yaxud da qohumlara, vəzifədə olan dostlara arxalanırsa, səhv yoldadır. Özləri də cəzalandırılacaqlar, onlara himəyadarlıq edən də cəzalandırılacaq”.

Ölkə Prezident ionu da vurğulayıb ki, heç kimə güzəşt yoxdur: “Mən sizə bir daha tapşırıram və bütün Azərbaycan vətəndaşları mənim tapşırıqlarımı eşidir və görür ki, istisnasız olaraq bütün sahibkarlıq subyektləri kölgə iqtisadiyyatından çıxmalıdır. Beləliklə, hesab edirəm ki, bizim bütövlükdə təmizləmə siyasətimiz öz gözəl nəticələrini verəcək. Azərbaycan iqtisadiyyatı öz dayanıqlı inkişafını davam etdirəcək”.

### “Biz o sahibkarların dərsini verəcəyik”

Dövlət başçısı, həmçinin sahibkalara qeyri-formal məşğulluğa son qoymağı aə işçilərin də əmək müqaviləsi olmadan işləməmələrini deyib. Bildirib ki, belə olan hallarda işçilər dərhal müvafiq qurumlara müraciət etsinlər: “Sahibkarlara müraciət edirəm, qeyri-formal məşğulluğa son qoyun. İşçilərə müraciət edirəm, bir daha əmək müqaviləsi olmadan işləməyin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, dərhal Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirliklərinə, Prezident Administrasiyasına müraciət edin. Biz o sahibkarların dərsini verəcəyik. Çünki indiki şəraitdə dövləti aldatmaq, vergilərdən yayınmaq və öz maddi marağını, tamahını təmin etmək xəyanətdir”.

Göründüyü kimi, bütün bunlar bir daha sübut edir ki, ölkəmizdə sosial siyasətin mərkəzində insan amili dayanır. Və hər şeydən əvvəl Prezident İlham Əliyevin bəyan etdiyi “siyasətimizin mərkəzində Azərbaycan insanı dayanır” prinsipinin növbəti əyani təcəssümü sayıla bilər. Çünki insana tükənməz qayğı, onun həyat şəraitinin yaxşılaşdırılması Azərbaycan hakimiyyətinin əsas qayəsinin təşkil edir. Və bu gün bu uğurlu siyasətə qara yaxmağa çalışan, yalan və manipuliyasiyalarla insanların fikirlərini dəyişdirməyə can atan məkrli xarici qüvvələri və nüfuzdan düşmüş radikal müxalifətin anti-Azərbaycan təbliğatını mənasız və əsassızdır.

Beləliklə də, dövlət başçısı xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin dövlət məmurlarının əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyini vurğulayıb. Prezident bu məsələdə heç kimə güzəştin olunmadığını və bundan hamının nəticə çıxarmalı olduğunu bildirib.

***Rəfiqə Kamalqızı***

## XİN: Aprelin 20-dən etibarən Rusiyadan Azərbaycana 548 vətəndaşımızın qayıdışı təmin edilib



Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunan xüsusi karantin rejimi müddətində Rusiya Federasiyasında yaşayan vətəndaşlarımızın ölkəyə geri qayıdışı ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məlumatda deyilir: “Məlum olduğu kimi, Rusiya Federasiyasında müvəqqəti olan və ölkəmizə qayıtmaq istəyən vətəndaşlarımızın geri qayıdışını təmin etmək məqsədilə www.evegedirem.info xüsusi portalı yaradılıb. Bu portalda qeydiyyatdan keçmə ardıcıllığına uyğun olaraq vətəndaşlarımızın əvvəlcədən məlumatlandırılmaqla ölkəyə geri dönüşü təmin edilir. Son günlərdə Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin dəstəyi, eləcə də Rusiyanın aidiyyəti dövlət qurumları ilə əlaqələndirmə və əməkdaşlıq çərçivəsində bir qrup vətəndaşımızın sərhəd keçid məntəqəsində əvvəlcədən təyin edilmiş xüsusi dəhliz vasitəsilə ölkəyə qayıdışı təmin edilib. Ümumilikdə, aprelin 20-dən etibarən sərhədi 548 nəfər keçib və geri qayıdan bütün vətəndaşlar müəyyən olunmuş müddətə karantinə yerləşdirilib. Xatırladırıq ki, “Evə gedirəm” portalında qeydiyyatdan keçmiş şəxslər növbəti keçidin tarixi barədə telefon zəngi və ya SMS vasitəsilə əvvəlcədən məlumatlandırılacaqlar.

Rusiya Federasiyası ərazisində olan və xüsusi portalda qeydiyyatdan keçmiş vətəndaşlarımızın qabaqcadan sərhəd keçid məntəqələrinə və hava limanına gəlməsinə heç bir zərurət yoxdur. Onlara öz yaşayış yerlərində qalmaq və müvafiq məlumatı gözləmək tövsiyə olunur.

# Hikmət Hacıyev: "Ermənistan xarici işlər nazirinin destruktiv açıqlaması danışıqlar prosesinə ciddi zərbədir"



Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistan xarici işlər nazirinin Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun açıqlamasına cavabı ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

-Ermənistan xarici işlər naziri Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun açıqlamasına cavab verərək Azərbaycan ərazilərinin işğaldan azad edilməyəcəyini bildirdi, indiyə qədər aparılmış danışıqlar prosesi və münaqişənin mərhələli həlli ilə bağlı təklifləri rədd və inkar etdi. Bu barədə nə deyərdiniz?

-Ermənistanın xarici işlər naziri sözügedən açıqlaması ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin üstündən xətt çəkir. Ermənistan tərəfinin bu kimi destruktiv açıqlaması danışıqlar prosesinə ciddi zərbədir və danışıqları pozur. Bu, eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrlərinə qarşı hörmətsizlikdir.

Ermənistan-Azərbaycan münaqişəsinin Helsinki Yekun Aktının prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında mərhələli şəkildə həll edilməsi və bu mərhələli proses çərçivəsində ilkin addım kimi Azərbaycanın Dağlıq Qarabağ regionu ətrafındakı ərazilərdən Ermənistan qoşunlarının çıxarılması həmsədr ölkələrin dövlət başçıları səviyyəsində verdikləri bəyanatlarında təsbit olunmuşdur. Həmçinin həmsədrlərin 2019-cu il 9 mart tarixli bəyanatında da münaqişənin mərhələli həllinə dair mövqe bir daha qeyd olunmuşdur.

BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində Azərbaycana qarşı gücdən istifadə edilməsi pislənilir, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bir daha təsdiq olunur və Ermənistan qoşunlarının dərhal, tam və qeyd-şərtsiz işğal olunmuş ərazilərdən çıxarılması tələb edilir.

Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov aprelin 21-də A.M.Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun üzvlərinin dəyirmi masasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qətnamələrinə toxunmuş və Ermənistan-Azərbaycan münaqişəsinin mərhələli həllinə dair plan və təkliflər barədə danışmışdı.

Ermənistan bu kimi dağıdıcı açıqlamalarla danışıqlar prosesindən çıxmaq məqsədini güdürsə, onda öz mövqeyini açıq bildirməlidir. ATƏT-in Minsk qrupunun həmsədrləri də Ermənistanın bu kimi dağıdıcı mövqeyini qiymətləndirməli və öz mövqelərini ortaya qoymalıdırlar.

Prezident İlham Əliyev tərəfindən bəyan olunduğu kimi, münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyi qəti, birmənalı və aydın xarakter daşıyır. Bu mövqe Prezident İlham Əliyev tərəfindən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında və Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistanın baş naziri ilə təşkil edilmiş açıq debatda bir daha qəti şəkildə ifadə olunmuşdur.

2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qanunsuz seçkilərlə əlaqədar beynəlxalq ictimaiyyətin mövqeyi Ermənistanın mövqeyinə böyük zərbə oldu. Bu qanunsuz xunta rejimini heç kim tanımır. Çoxsaylı beynəlxalq təşkilatlar və dövlətlər, o cümlədən Qoşulmama Hərəkatına üzv dövlətlər, ATƏT-in Minsk qrupunun həmsədrləri, Avropa İttifaqı, NATO, Avropa Parlamenti, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı və s. bu seçkiləri tanımayan bəyanatlarla çıxış etdilər. Münaqişə Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

# Azərbaycan XİN: "Yadda saxlamaq lazımdır ki, işğal müvəqqətidir"

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun aprelin 21-də keçirdiyi videokonfrans zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlara dair səsləndirdiyi bəyanata Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın münasibətini şərh edib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva bununla bağlı aşağıdakı fikirləri bildirib: "Məlum olduğu kimi, müasir dünya nizamı II Dünya müharibəsindən sonra formalaşdı və onun əsasları 1945-ci il BMT Nizamnaməsi, 1975-ci il ATƏT-in Helsinki Yekun Aktı və 1990-cı il Paris Xartiyası sənədlərində öz əksini tapdı. Bütün bu fundamental sənədlərdə beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin suverenliyi, ərazi bütövlüyü, eləcə də xalqların öz müqəddəratı prinsiplərinə aydınlıq gətirilir. Azərbaycan kimi Ermənistan da bu sənədlərin tamhüquqlu iştirakçısıdır və onlara birmənalı şəkildə riayət edilmək öhdəliyini öz üzərinə götürüb. Bir daha xatırladırıq ki, iştirakçı ölkələr digər ölkələrin ərazilərinin toxunulmazlığına və ya siyasi müstəqilliyinə qarşı güc istifadə etməkdən çəkinməlidirlər. Həmçinin növbəti dəfə vurğulayırıq ki, yuxarıda qeyd etdiyimiz Helsinki Yekun Aktında qeyd olunduğu, daha sonradan isə Paris Xartiyasında bir daha təsdiq edildiyi kimi, öz müqəddəratını müəyyən etmə prinsipinə gəldikdə, iştirakçı ölkələr BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də dövlətlərin ərazi bütövlüyü də daxil olmaqla, beynəlxalq hüququn müvafiq normalarına uyğun olaraq hərəkət etməlidirlər.




Ermənistanla Azərbaycan arasındakı münaqişə halında, məhz Ermənistan yuxarıda qeyd etdiyimiz öhdəliklərini pozaraq, qonşu Azərbaycana qarşı hərbi gücdən istifadə etməklə onun beynəlxalq tanınmış torpaqlarının beşdəbirini işğal edib və bu ərazilərdə yaşayan bir milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoyub. Belə bir vəziyyətdə işğalçı ölkə olan Ermənistanın xarici işlər naziri utanmadan təhlükəsizlik problemlərindən, müqəddəratı azad şəkildə ifadə etməkdən danışır. Hərbi işğal şəraitində hansı təhlükəsizlikdən danışmaq olar? Bir ölkə tərəfindən digər ölkənin ərazilərinin işğalı faktının özü elə davamlı təhlükə mənbəyidir. Qarabağın əhalisinin üçdəbirinin öz daimi yaşayış yerlərindən didərgin salındığı və 30 ilə yaxındır ki, evlərinə qayıtmaq imkanından və öz bölgələrinin gələcəyinə dair azad iradə nümayiş etdirilməsindən məhrum olduqları bir vaxtda nə Qarabağ əhalisinin təhlükəsizliyi, nə də azad iradənin nümayiş etdirilməsindən danışmaq olmaz.

Aprelin 21-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə mərhələli yanaşma ilə bağlı səsləndirdiyi məlum şərhinə gəldikdə, bu yanaşmanın ATƏT-in Minsk qrupunun bütün həmsədrləri tərəfindən nümayiş etdirildiyini təsdiq edə bilərəm və bu mövqe onların özləri tərəfindən münaqişənin tənzimlənməsi prosesinin bütün mərhələlərində və bütün səviyyələrində dəfələrlə və ardıcıl olaraq səsləndirilib.

Yadda saxlamaq lazımdır ki, işğal müvəqqətidir. Ermənistan bunu nə qədər tez dərk edərsə və öz-özünü, xalqını aldatmağa, həmçinin beynəlxalq ictimaiyyəti yanıltmaq səylərinə son verərsə, qan tökülməsinin və onsuz da heç də yaxşı olmayan vəziyyətin daha da pisləşməsinin qarşısının alınması üçün bir o qədər çox şansı olar".

## Yeni Azərbaycan Partiyası pandemiya şəraitində beynəlxalq əməkdaşlığı davam etdirir



Hazırda bütün dünyada insanların sağlamlığına və sosial-iqtisadi inkişafa başlıca təhdid mənbəyinə çevrilən yeni növ koronavirus infeksiyasına qarşı Azərbaycanda çevik və səmərəli mübarizə aparılır. Yeni Azərbaycan Partiyası da əhali arasında müxtəlif maarifləndirmə tədbirləri və humanitar aksiyalar həyata keçirməklə COVİD-19 infeksiyası ilə mübarizədə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu dövlət siyasətinə yaxından dəstək nümayiş etdirir.

Eyni zamanda, Yeni Azərbaycan Partiyası yeni növ virusun yaratdığı qlobal böhrana qarşı bəşəriyyətin birgə mübarizəsi prinsipindən çıxış edərək bu sahədə beynəlxalq əməkdaşlığa da töhfə verməkdədir. Belə ki, YAP sıx əlaqələrə malik olduğu siyasi partiyalar və üzv olduğu təşkilatlarla əməkdaşlığı davam etdirərək beynəlxalq səviyyədə fəal təcrübə mübadiləsi aparmaqdadır.

Son həftələrdə YAP "Vahid Rusiya" partiyası, Çin Kommunist Partiyası, Vyetnam Kommunist Partiyası və Mərkəzçi Demokrat İnternasionalı təşkilatı ilə təmaslar quraraq, eləcə də Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) təşkil etdiyi onlayn konfransda iştirak edərək, Azərbaycanda COVİD-19 infeksiyasının yayılmasının qarşısının alınması, pandemiyanın yaratdığı sosial-iqtisadi çətinliklərin aradan qaldırılması tədbirləri və partiya olaraq bu sahədə gördüyü işlər barədə ətraflı məlumat verib, ölkələrin bu istiqamətdə öz müsbət təcrübələrini bölüşməsi təşəbbüsünü dəstəkləyib.

## Ölkədə 38 nəfər virusa yoluxub, 42 nəfər sağalıb



Azərbaycanda 38 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, 42 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 108.221 test aparılıb.

## Milli Məclisin komitəsinin növbəti onlayn iclası keçirilib

Aprelin 22-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib. SİA-nın xəbərinə görə, iclasda "Hərbi qulluqçuların statusu haqqında", "İnzibati icraat haqqında", "Təhsil haqqında" və "Elm haqqında" qanunlarda, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə sənəd (ikinci oxunuş) müzakirə edilib.

Komitə sədri Bəxtiyar Əliyev adı çəkilən qanunlara təklif olunan dəyişikliklər haqqında məlumat verib. Bildirib ki, ölkəmizdə elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılmasını təkmilləşdirmək, elmi tədqiqatların səviyyəsini yüksəltmək məqsədi ilə Prezident İlham Əliyevin 2019-cu il 11 iyun tarixli fərmanı ilə "Elmi dərəcələrin verilmə qaydası" və "Elmi adların verilmə qaydası" haqqında əsasnamələr təsdiq edilib.

Fərmanda elmi dərəcələr və adların verilmə qaydaları, xarici ölkələrdə verilən elmi dərəcə və adların nostrifikasiyası, elmi dərəcədən və elmi addan məhrumetmə, elmi dərəcə və adların bərpası və digər məsələlər öz əksini tapıb. Mövcud layihə yuxarıda qeyd olunan Fərmanla əlaqədar hazırlanıb və müvafiq qanunvericiliyə uyğunlaşdırmaq məqsədi daşıyır. Komitə üzvləri Musa Qasımlı, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Etibar Əliyev, Kamilə Əliyeva, İsa Həbibbəyli, Afət Həsənova, Rəfael Hüseynov, Anar İsgəndərov, Pərvin Kazımzadə, Eldar Quliyev, Müşfiq Məmmədli, Ceyhun Məmmədov, Aqiyə Naxçıvanlı, Şahin Seyidzadə və Fatma Yıldırım iclasda çıxış edərək sənədlə bağlı fikirlərini bildiriblər. İclasın sonunda qanun layihəsinin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi qərara alınıb.

# Minnətdarlıq məktubları: "Cənab Prezident, xalq üçün etdikləriniz Sizə olan inam və güvəni daha da möhkəmləndirdi"

***Koronavirus pandemiyası dövründə Azərbaycan əhalisinin sağlamlığının qorunması və rifahının yaxşılaşdırılması, xalqımızın bu bəladan daha az itkilərlə xilas olması ilə bağlı gördüyü mühüm işlərə görə vətəndaşlarımız Prezident İlham Əliyevə respublikamızın bütün guşələrindən, eləcə də xaricdən çoxsaylı minnətdarlıq məktubları ünvanlayırlar. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir qismini təqdim edir.***



Türkiyə Respublikasının Adana şəhərində yaşayan Vüsalə Abdulova yazır: "Möhtərəm cənab Prezident, mən Türkiyənin Adana şəhərində yaşayıram. Hemofiliya xəstəliyindən və autizm sindromundan əziyyət çəkən 14 yaşlı oğlum Allahverdi Salmanov evdə pillələrdən yıxılmış və aldığı zərbədən beyninə qan sızmışdı. Yaşadığım Adana Şəhər Uşaq Araşdırma Xəstəxanasının reanimasiya şöbəsində ölümlə çarpışan oğlumun yanında bir neçə gün yalnız qaldım. Sizin "Mən bütün dünyadakı azərbaycanlıların Prezidentiyəm" sözünüzü xatırlayan kimi bu yalnızlıq məni tərk etdi. Son dövrlər Sizin tapşırıqlarınıza uyğun olaraq Azərbaycan hökumətinin Türkiyədəki soydaşlarımıza göstərdiyi maddi və mənəvi yardımları yada saldım. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinə müraciət edərkən "Azərbaycan dövləti arxanızdadır" sözlərini eşitdim. Oğlum zəruri dərman preparatları ilə pulsuz təmin olundu. Bu, həm də mənə böyük mənəvi dayaq oldu. Çətin günlərdə özümü yalnız hiss etmədim. Sevimli dövlət başçımız, Siz siyasətinizin mərkəzində məhz xalqımızın dayandığını bir daha nümayiş etdirdiniz. Hazırda oğlumun müalicəsi davam edir. Bu ağır günlərimdə mən hər an Sizi arxamda hiss etdim. Dünya ölkələrinin iflic vəziyyətdə olduğu günlərdə bütün güvvələri səfərbər edərək ölkəmizi qoruduğunuza, həm də xaricdə yaşayan azərbaycanlılara yardım etdiyinizə görə çox sağ olun. Azərbaycan Sizinlə yenilməzdir. Allah Sizi və ailənizi qorusun!".

Laçın rayonundan məcburi köçkün Pəhlivan Məmmədov: "Möhtərəm Prezidentimiz, Dağlıq Qarabağ münaqişəsi səbəbindən 1992-ci ildən doğma yurdumdan köçkün düşərək ailəmlə birlikdə Ağcabədi rayonu ərazisində məskunlaşmışam. Mənfur düşmənlərimizin xəyanəti nəticəsində el-obamızı itirsək də, heç vaxt çətinlik görməmişik. Çünki Azərbaycan dövləti hər zaman məcburi köçkünlərin qayğısına qalıb. Hazırda Laçın Rayon Baytarlıq İdarəsində baytar həkim işləyirəm. Bu günlərdə ailəmiz dövlətimiz tərəfindən yeni evlə təmin olundu. Bu, Sizin, dövlətimizin xalqa daimi qayğınızın bariz nümunəsidir. Cənab Prezident, ailəmiz adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Allah Sizi qorusun, ölkəmizi bütün bəlalardan hifz eləsin!".

Kəlbəcər rayonunun 87 yaşlı sakini, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının və Yazıçılar Birliyinin üzvü, "Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin sədri Qənbər Qurbanov: "Möhtərəm cənab Prezident, bütün bəşəriyyət üçün təhlükə yaradan koronavirus (COVID-19) xəstəliyinin Azərbaycanda geniş yayılmasının qarşısının alınması üçün Sizin rəhbərliyinizlə həyata keçirilən mübarizə tədbirləri bizdə böyük qürur hissi yaradıb. Dünyanın ən inkişaf etmiş ölkələrinin, müasir səhiyyə sistemlərinin belə qarşısında aciz qaldığı bu xəstəlik Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hələ pandemiya elan olunmamışdan əvvəl Sizin uzaqgörənliklə başlatdığınız və birbaşa rəhbərliyinizlə həyata keçirilən tədbirlər nəticəsində, şükürlər olsun ki, ölkəmiz üçün faciəvi nəticələrə gətirib çıxarmadı. Bütün bunlara görə xalqımız Sizə minnətdarlığını ifadə edir, Azərbaycanın bu sahədəki mübarizəsinin dünya ölkələri üçün örnək olmasını qürur hissi ilə qarşılayır. Məhz görülən tədbirlərin nəticəsidir ki, son günlər ölkəmizdə bu xəstəliyin gedişatı ilə bağlı müsbət dinamika müşahidə olunur, sağalıb evlərinə dönən xəstələrin sayı hər gün artır. Möhtərəm cənab Prezident, bu xəstəliklə mübarizə məqsədilə Sizin tapşırığınızla Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın, eyni zamanda, Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, "Yeni klinika" tibb müəssisəsinin və Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı müəssisəsinin açılışları, sosial qayğıya ehtiyacı olan vətəndaşlara maddi yardımların göstərilməsi, bu problemin həlli ilə bağlı keçirdiyiniz müşavirələr, dövlət strukturlarına verdiyiniz müvafiq tapşırıqlar bir daha Sizin bu sahədəki siyasətinizin qətiyyətli, ardıcıl və davamlı olmasının sübutudur. Görülən bütün bu tədbirlər, Sizin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çətin anlarda hər zaman xalqla birliyi, bütün fəaliyyətinizin xalqımızın bu ağır sınaqdan üzüağ çıxmasına yönəlməsi insanlarda yüksək əhval-ruhiyyə yaradıb. Bu çətin günlərdə bütün xalqımız Sizin "Biz birlikdə güclüyük!" çağırışınızın müsbət əhval-ruhiyyəsi və mənəvi gücü ilə yaşayır. Möhtərəm cənab Prezident, mən bir ağsaqqal kimi Sizin və Mehriban xanımın bu xidmətlərini yüksək qiymətləndirirəm. Ürəkdən inanıram ki, həyata keçirdiyiniz tədbirlər sayəsində xalqımız tezliklə bu ağır xəstəlikdən ən az itki ilə qurtulacaq. Bütün bu diqqət, qayğı və dəstəyə görə bir daha Sizə dərin minnətdarlığımı bildirirəm. Ulu Tanrı Sizi, ailənizi, xalqımızı və möhkəm təməlləri ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan qüdrətli dövlətimizi qorusun!".

Lənkəran rayonunun Türkəkəran kəndinin sakini Saleh Cəfərov: "Hörmətli cənab Prezident, dünyanı cənginə almış COVID-19 xəstəliyinə qarşı bütün vətəndaşlarımızı öz ətrafında birləşdirərək Siz xalqımızı, o cümlədən bizi xəstəliyə qarşı mübarizəyə səfərbər etmisiniz. Mən nəvə və nəticələrim daxil olmaqla ailəmin 75 üzvü adından Sizə dərin minnətdarlığımı bildirirəm. Bu bəladan itkisiz və üzüağ çıxmaq üçün qurban kəsib, namaz qılmaqla Allaha dualar edirəm. Hörmətli Prezidentimiz, Siz 16 il əvvəl Prezident seçilərkən Qurana əl basıb, and içib "Hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" söylədiniz və öz andınıza sadiq qalaraq Azərbaycanın ildən-ilə, gündən-günə inkişaf edib çiçəklənməsinə çalışırsınız. Allah Məhəmməd peyğəmbərin başı üstündə bərqərar etdiyi kölgəni Sizin və Sizin simanızda ailə üzvlərinizin başı üstündən əskik eləməsin! Hörmətli Prezident və Mehriban xanım. Siz işdə olun, biz evdə olarıq və biz birlikdə bu bəlaya qalib gələcəyik".

Laçın rayonundan məcburi köçkün Türkanə Xaspoladzadə: "Əziz Prezidentimiz, Siz hər zaman gənclərə önəm verir, onları dəstəkləyirsiniz. Bu dəstəyiniz sayəsində gənclərin ölkəmizin ictimai-siyasi həyatında rolu artır. Gənclərimiz ölkəmizə yeni-yeni nailiyyətlər qazandırırlar. Cənab Prezident, Siz hazırda aztəminatlı, sosial qayğıya ehtiyacı olan ailələrə böyük diqqət və qayğı göstərirsiniz. Dünyanın bəşəri probləmə çevrilən koronavirusun ağuşunda olduğu bu çətin dövrdə xalqımızın rifahı naminə imzaladığınız sərəncamlar bir daha göstərdi ki, Azərbaycan xalqının sağlamlığı, əmin-amanlığı hər zaman olduğu kimi, yenə də Sizin üçün ən önəmli məsələdir. Ölkəmizin təhlükəsizliyini təmin etmək, xalqın rifahını yaxşılaşdırmaq üçün gördüyünüz işlərə görə laçınlılar və Xaspoladzadələr adından Sizə və Birinci vitse-prezidentimiz Mehriban xanıma təşəkkürümüzü bildiririk".

Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu: "Möhtərəm Prezidentimiz, son aylarda dünyanı bürümüş pandemiyadan xalqımızı xilas etmək üçün atdığınız qətiyyətli addımlara, verdiyiniz çox önəmli qərarlara görə ölkəmizin bütün vətəndaşları kimi, mən də Sizə hədsiz minnətdarlığımı bildirirəm. Ölkə rəhbəri kimi Sizin vaxtında həyata keçirdiyiniz tədbirlərin nəticəsidir ki, Azərbaycan bu gün bütün dünyanı bürümüş koranavirusdan ən az əziyyət çəkən, bəşəriyyətin bəlasına çevrilmiş pandemiyaya qarşı ən səmərəli mübarizə aparan ölkələr arasında ön sıralarda dayanır. Hətta Azərbaycan bu sahədə Avropanın və dünyanın ən qabaqcıl ölkələrini də arxada qoyur. Qısa müddət ərzində bu virusa yoluxma dinamikasında geridönüşün yaranması, son günlərdə isə sağalanların sayının yeni yoluxanların sayından dəfələrlə artıq olması, ölüm faizinin bəlkə də dünyada ən aşağı səviyyədə olması bir daha onu sübut edir ki, Sizin rəhbərliyiniz və bilavasitə göstərişləriniz əsasında bu istiqamətdə çox ciddi tədbirlər həyata keçirilir. Xalqımız və eləcə də dünya ictimaiyyəti bir daha şahidi oldu ki, Azərbaycanda əhalinin sağlamlığı və sosial rifah halı dövlətin çox böyük önəm verdiyi prioritet sahədir və ölkəmiz yarana biləcək hər cür forsmajor hallara hazırdır. Yaranmış vəziyyətlə əlaqədar elan olunmuş karantin dövründə dünyanın bir çox ölkələrindən fərqli olaraq Azərbaycanın iqtisadi böhran yaşamaması, əhalinin ərzaq və digər zəruri mallara ehtiyacının ödənilməsində heç bir problemin olmaması, nəzərdə tutulmuş sosial layihələrin dayandırılmaması ilə yanaşı, işsizlərə yardım edilməsi, sahibkarlara dəyən ziyanın minimuma endirilməsi üçün müxtəlif tədbirlərin həyata keçirilməsi, onlara maliyyə dəstəyinin göstərilməsi də bir daha ölkəmizin Prezidenti kimi Sizin daim xalqın yanında olduğunuzu, əhalinin sosial durumunun daha da yaxşılaşdırılması üçün əlinizdən gələn hər şeyi etdiyinizi sübuta yetirir. Sizin uzaqgörən xarici və daxili siyasətiniz sayəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu gündən-günə artır, iqtisadiyyatımız inkişaf edir, respublikamızda maliyyə dayanıqlılığı getdikcə möhkəmlənir, xalqla dövlətin sarsılmaz birliyi var. Möhtərəm Prezidentimiz, ölkəmiz və xalqımız üçün də çətin olan bu günlərdə göstərdiyiniz qətiyyətə, bu bəşəri bəladan xalqımızı çox az itki ilə çıxarmaq üçün həyata keçirdiyiniz mühüm tədbirlərə və əhaliyə göstərdiyiniz dəstəyə görə Sizə bir daha təşəkkür edirəm. Xalq öz Prezidentinə inanır və güvənir".

Bakıdakı 17 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Elmira Rəfailova: "Möhtərəm cənab Prezident, Sizin rəhbərliyinizlə respublikamızın gündən-günə inkişaf etməsi, dünya dövlətləri sırasında nüfuzunun artması istiqamətində çox böyük işlər görülür və bu tədbirlər xalqımız tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Hörmətli cənab Prezident, xüsusilə də ölkə vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyiniz layihələr, atdığınız uğurlu addımlar təqdirəlayiqdir. Sizin daim diqqət mərkəzində saxladığınız sahələrdən biri də səhiyyədir ki, bu günlərdə illər əvvəl gördüyünüz işlər öz bəhrəsini verdi. Müasir tələblər səviyyəsində yenidən inşa edilmiş, müasir tibbi avadanlıqlarla təchiz edilərək xalqın istifadəsinə verilmiş xəstəxanalar bu gün koronavirus infeksiyasına tutulan xəstələrin nicat yeri oldu. Dünyanın belə çətin, qarışıq günlərində heç bir ölkədə heç bir lider Sizin atdığınız qətiyyətli addımları atmır. Siz bütün insanları düşünür, onların qayğısına qalırsınız. Əziz Prezidentimiz, ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizənin çox yüksək səviyyədə təşkil edilməsinə görə kollektivimiz adından Sizə təşəkkür edirik.

Ardı Səh. 5

# Minnətdarlıq məktubları: “Cənab Prezident, xalq üçün etdikləriniz Sizə olan inam və güvəni daha da möhkəmləndirdi”

Əvvəli-Səh-4

İnanırıq ki, müdrik qərarlarınızla bu bəladan minimum zərərlə qurtulacağıq. Sizinlə fəxr edirik”.

Füzuli rayonunun Horadiz şəhərindən Məhəmməd İsmayılov, Ənvər Məhərrəmov, Kəmalə Rüstəmova və Rafiq Əliyev yazırlar: “Hörmətli cənab Prezident, ölkəmizdə milli həmrəylik bu günə qədər müşahidə edilməyən səviyyədədir. Bu, Sizin xalqımıza olan diqqət və qayğınıza cavabdır. Tövsiyələriniz, çağırışlarınıza səs verən vətəndaşlar çətin günlərdə dövlətimizin ətrafında sıx birləşdilər. Hamı bir-birinə, xüsusilə aztəminatlı ailələrə kömək göstərir. Siz, eyni zamanda, sahibkarlara böyük dəstək verirsiniz. Bizlərə də karantin şəraitində müxtəlif yardımlar edilir. Bütün bunlara görə Sizə təşəkkür edir, “Çox sağ olun!” deyirik. Tanrı Sizi qorusun!”.

Horadiz şəhər 2 nömrəli tam orta məktəbin direktoru Ləman Əliyeva: “Çox hörmətli Prezidentimiz İlham Əliyev, bu gün dünyanı təhdid edən koronavirus pandemiyasının Azərbaycanda yayılmasının qarşısının alınması istiqamətində ilk gündən bütün mümkün qabaqlayıcı və təxirəsalınmaz tədbirlər həyata keçirərək ölkəmizi bu virus təhlükəsindən qorumağınızı ictimaiyyət böyük rəğbət və məmnunluq hissi ilə qarşıladı. Heç bir ölkə, heç bir şəxs bu virusdan sığortalanmayıb. Ona görə də hamı bu məsələyə ciddi yanaşmalı, cəmiyyətimiz də öz üzərinə düşən vəzifələri yerinə yetirməli, dövlət tərəfindən görülən məhdudlaşdırıcı tədbirləri anlayışla qarşılamalı və onlara əməl etməlidir. Belə olduğu halda mən əminəm ki, biz bu virusa asanlıqla qalib gələcəyik. Füzulidə də vətəndaşlardan özünütəcrid tədbirlərinə uyğun davranmaq, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmaq, digər şəxslərlə minimum kontakda olmaq və digər qaydalara ciddi əməl etmək tələb olunur. Cənab Prezident, Vətənimizin firavanlığı və tərəqqisi istiqamətində səmərəli fəaliyyətinizə görə füzulililər adından Sizə dərin minnətdarlığımı bildirir, ali dövləti fəaliyyətinizdə uğurlar, ölkəmizə sülh və firavanlıq arzu edirəm. Allah Sizi qorusun!”.

Xızı rayonunun Xələnc kəndindən Sevər Şərifova yazır: “Hörmətli cənab Prezident, bu gün dünyanı aciz vəziyyətə salmış, səhiyyəsi, iqtisadiyyatı güclü inkişaf etmiş ölkələri belə çətinliklər qarşısında qoyan koronavirusla mübarizədə xalqımız üçün etdikləriniz, uzaqgörən qərarlarınız insanların Sizə olan inam və güvənini daha da möhkəmləndirdi. Sizin bu çətin vəziyyətdə aztəminatlı insanlara dəstəyiniz, xalqa göstərdiyiniz maddi və mənəvi dəstək bir daha bizləri səmimi qəlbdən qürurlandırdı. Xalqın hər bir nümayəndəsinə göstərdiyiniz qayğı, əsasən də yaşlı insanların sağlamlığının qorunması üçün verdiyiniz qərarlar xalqımızın mənəvi dəyərlərinə verdiyiniz yüksək qiymətin daha bir nümunəsidir. Siz bir daha sübut etdiniz ki, hər bir vətəndaşın Prezidentisiniz. Biz birlikdə güclüyük! Cənab Prezident, bu yolda Sizə və xalqımıza Allahdan kömək diləyirik. İnanırıq ki, Sizin rəhbərliyinizlə biz birlikdə bu çətinliyin öhdəsindən layiqincə gələcəyik”.

Gəncə şəhərinin sakini Hicran Məmmədova: “Hörmətli cənab Prezident, bu gün bəşəriyyət ağır sınaq qarşısındadır. Yeni qlobal pandemiya - koronavirus (COVID-19) infeksiyası Yer kürəsinin sakinlərinin, eyni zamanda, ölkəmizin vətəndaşlarının sağlamlığını təhdid altına alıb. Gözlə görə bilmədiyimiz düşmənlə mübarizə günümüzün bir nömrəli reallığına çevrilib. Sizin qətiyyətli iradəniz və təşəbbüskarlığınız sayəsində ilk gündən ölkəmizdə koronavirusun geniş yayılmasının qarşısını almaq məqsədilə vətəndaşlarımızın sağlamlığının qorunmasına xidmət edən bütün zəruri, qabaqlayıcı addımlar atıldı. Bu gün də sərhəd tanımayan qorxunc infeksiyanın ölkəmizdə yayılmasının qarşısının alınması ilə bağlı təxirəsalınmaz tədbirlər davam etdirilir. Sizin “Biz birlikdə güclüyük!” çağırışınız isə xalqımızın milli birliyinə stimul oldu, pandemiyaya qarşı mübarizədə həmrəyliyə səslədi. Cənab Prezident, Sizə dərin hörmətimi və təşəkkürümü bildirir, Azərbaycan dövlətinin inkişafı, ölkə vətəndaşlarının sağlam gələcəyi naminə gördüyünüz əvəzsiz işlərinizdə uğurlar arzulayıram”.

Saatlı rayonunun Varxankənd kəndinin sakini Lətif Şimşəkov: “Çox hörmətli cənab Prezident, Siz dünyanı bürüyən və böyük tələfatlara səbəb olan koronavirus pandemiyasına qarşı çevik və vaxtında qabaqlayıcı tədbirlər həyata keçirməklə vətəndaşlarımızın yanında olduğunuzu bir daha sübut etdiniz. Həmçinin son günlər əhalinin aztəminatlı hissəsinin sosial rifahının yaxşılaşdırılması üçün imzaladığınız məlum sərəncamlara görə Saatlı rayonunda yaşayan Axısqa türkləri adından Sizə minnətdarlığımızı bildiririk. Ulu Tanrı Sizi, ailənizi və övladlarınızı qorusun!”.

Qobustan rayonundan Baba Mahmudzadə: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən bir Azərbaycan vətəndaşı olaraq Sizinlə qürur duyuram. Dünyada yayılan (COVID-19) koronavirus pandemiyasından ölkəmizi qorumaq üçün bütün qüvvələri səfərbər etmisiniz. Aztəminatlı ailələri və işsiz vətəndaşları nəzərə alaraq dövlət tərəfindən 190 manat birdəfəlik ödəmələr üçün vəsait ayrıldı. Bu vəsait 200 min insana şamil edilirdi, lakin Sizin tapşırığınıza əsasən bu say 600 minə çatdırıldı. Siz bir daha vətəndaşların yanında olduğunuzu sübut etdiniz. Sizin tapşırığınızla əvvəlcədən görülmüş profilaktik tədbirlər nəticəsində Azərbaycanda koronovirus xəstələrinin sayı digər ölkələrə nisbətən xeyli azdır. Dünyanın ən güclü ölkələri belə koronavirus pandemiyasının qarşısında çarəsiz qaldığı halda, müdrik siyasətiniz sayəsində Azərbaycanda səmərəli tədbirlər görüldü. Əminik ki, Sizin sayənizdə ölkəmiz bu bəladan minimum itkilərlə qurtulacaq. Sizin dediyiniz kimi, “Biz birlikdə güclüyük!”. Mən də bir Azərbaycan gənci olaraq Sizin çağırışınıza qoşulur və bütün xalqımızı bu çağırışınıza qoşulmağa çağırıram.

Ağdaş rayonunun sakini Cavid Quluyev: “Möhtərəm cənab Prezident, bütün dünyanı saran koronavirus pandemiyası doğma yurdumu, Azərbaycanı da sınağa çəkməkdədir. Cənab Prezident, Sizin COVID-19 epidemiyasının qarşısını almaq məqsədilə gördüyünüz qabaqlayıcı işlər göz qabağındadır. Virusun aşkarlandığı ilk vaxtlardan ölkəmizdə Operativ Qərargahın yaradılması, təlim-təhsil prosesinin dayandırılması xəstəliyin geniş yayılmasının qarşısını almağa imkan verdi. Təhsil Nazirliyinin təşəbbüsü ilə hazırlanan teledərslərdə iştirak edir və dərsləri mi daha həvəslə oxuyuram. Cənab Prezident, Sizə, Birinci vitseprezident Mehriban xanım Əliyevaya və bütün həkimlərimizə təşəkkürümü bildirirəm. Mən də gələcəkdə həkim olmaq arzusundayam. Əminəm ki, biz bu sınaqdan da uğurla çıxacağıq”.

Bakı şəhərinin Binəqədi rayonunun sakini Murad Məmmədov: “Hörmətli İlham Heydər oğlu, mən Sizə və Sizin ailənizə, ölkə üçün bu çətin vaxtlarda Sizinlə bərabər, vətəndaşların sağlamlığını düşünən hər kəsə təşəkkürlərimi bildirirəm. Sizin ölkəmizin rifahı naminə gecə-gündüz çalışdığınızı gördükdə göz yaşlarımı saxlaya bilmirəm. Mən və anam Sizə və yaxınlarınıza xoşbəxtlik və cansağlığı arzulayırıq. Sizə sonsuz təşəkkürümü bildirirəm.

Cənab Prezident, xalq Sizin gördüyünüz işləri dəyərləndirir. Sadə insanlar Sizin üçün dua edirlər. Mən gözəl şəhərimizə, gözoxşayan parklara görə də Sizə dərin təşəkkürümü bildirirəm. Bakıda aparılan işlərə görə çox xoşbəxtəm. Bu, Sizi və Sizin siyasətinizi dəstəkləyən xalqı birləşdirir. İnanıram ki, vaxt gələcək, ölkənin və gənc nəslin rifahı naminə Sizin fədakar əməyinizi dəyərləndirməyənlər öz səhvlərini başa düşəcək və dost əlini Sizə uzadacaqlar. Xeyir daim Şərə qalib gəlir. Siz mərhəmətli, müdrik, geniş qəlbə sahib insansınız. Allah Sizi qorusun!”.

Siyəzən rayonunun sakini Balabəy Balabəyov: “Möhtərəm cənab Prezident, dünyanı bürüyən koronavirus pandemiyası bir çox inkişaf etmiş ölkələrdə qarşısıalınmaz təhlükəyə çevrilib. Milyonlarla insan hazırda bu virusa yoluxub, on minlərlə insan həyatını itirib. Təəssüflər olsun ki, virus bizim ölkəyə də gəlib çatıb. Lakin Sizin uzaqgörənliyiniz və qabaqlayıcı tədbirləriniz sayəsində virusun kütləvi şəkildə yayılmasının qarşısı alınıb və nəzarətdə saxlanılır. Əhalini virus təhlükəsindən qorumaq üçün ölkədə xüsusi karantin rejimi elan olundu, dezinfeksiya işləri aparıldı, səhiyyə sahəsində gücləndirilmiş iş rejiminə start verildi, həkimlərin maaşı artırıldı.

Bundan əlavə, insanların evdə qalmaları ilə əlaqədar yarana biləcək problemlər də nəzərə alındı, onların sosial rifahı ilə bağlı qərarlar qəbul olundu. Aztəminatlı ailələrə 190 manat vəsaitin verilməsi ilə bağlı Sərəncam imzaladınız. Ölkənin iş adamları da çağırışınıza qoşularaq insanlara çətin durumda dəstək oldular. Möhtərəm Prezident, bütün bu tədbirlər göstərir ki, Siz daim Azərbaycan xalqının yanındasınız. Buna görə Sizə minnətdarıq”.

Ucar rayonunun Çiyni kəndindən din xadimi Zaur Eyvazov: “Möhtərəm cənab Prezident, hazırda bütün dünyada koronavirus pandemiyası ilə mübarizə aparıldığı bir zamanda ölkəmizdə tərəfinizdən vaxtında lazımi və qabaqlayıcı tədbirlərin görülməsi, əhalinin sağlamlığının qorunması istiqamətində icra edilən operativ işlərə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Bütün sahələrdə olduğu kimi, dindar insanlar da Sizin daimi diqqət və qayğınızı hiss edirlər. Azərbaycan dindarları da xüsusi karantin rejiminin qaydalarına riayət edirlər. Bu gün dünyadakı çətin vəziyyətə baxmayaraq, Sizin sayənizdə ölkəmizdə ailəsinin əhatəsində evdə qalan hər bir şəxs ruhdan düşmür, gələcəyə inamla baxır. Bunlar Sizə olan etibardan qaynaqlanır. Əminik ki, bu tədbirlər tezliklə müsbət nəticə verəcək. Sağlamlığımızın qayğısına qaldığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk”.

## Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürülən ianələrin məbləği açıqlanıb

Koronavirusla Mübarizəyə Dəstək Fonduna indiyədək köçürülən ianənin məbləği məlum olub. SİA-nın məlumatına görə, bu günə kimi Fonda 112 849 265 manat vəsait köçürülüb. İanə köçürən şəxslər arasında 3150 hüquqi, 10 508 fiziki şəxs var. Xatırladaq ki, Koronavirusla Mübarizəyə Dəstək Fondu Prezident İlham Əliyevin fərmanı ilə martın 19-da yaradılıb. Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının Azərbaycan Respublikasında yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.



Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son aylarda dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsini zəruri edir.

## Koronavirusa qarşı peyvənd sınaqdan keçiriləcək

***Almaniyada, insanlarda koronavirusa qarşı peyvəndi sınaqdan keçirməyə başlayacaqlar. SİA RenTv-yə istinadən xəbər verir ki. bu barədə “İnterfaks” Alman Vaksinlər və Biomedikal Hazırlıqlar üzrə Federal İnstitutuna istinadən məlumat yayıb.***

Məlumata görə, vaksini inkişaf etdirən “Biontech”ə sınaq icazəsi verilib. Qeyd olunur ki, peyvənd sınaqları könüllülər üzərində aparılacaqdır. Peyvənd 18 yaşdan 55 yaşa qədər olan 200 sağlam insanda sınanılacaq. “İnsanlarda” peyvənd üçün sınanma təsirli bir anti-COVID-19 dərmanının hazırlanması yolundakı vacib bir mərhələdir”, deyə Alman Vaksinlər və Biomedikal Hazırlıqlar üzrə Federal İnstitutu PEI izah edib.



# Sahil Babayev: "Karantin rejimindən sonra şəhid ailələrinə və müharibə əlillərinə mənzillər veriləcək"

***Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə, habelə Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə keçirdiyi iclasda dövlət başçısının sosial sahə ilə bağlı tapşırıqlarının icrası istiqamətində görülən işlərin və qarşıda duran vəzifələrin müzakirəsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində videobağlantı formasında kollegiya iclası keçirilib. Nazirlikdən SİA-ya verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu il həssas qruplarla bağlı nəzərdə tutulan bütün sosial proqramlar, eləcə də sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi ilə bağlı planlar tam icra olunacaq.***



Xüsusi karantin rejimi bitdikdən sonra şəhid ailələrinə və müharibə əlillərinə yeni alınan mənzillərin verilməsinə başlanacaq, bu il onlara 1500 mənzil verilməlidir, həmçinin müharibə əlillərinə avtomobillərin verilməsi işləri də davam edəcək.

Nazir qeyd edib ki, cənab Prezidentin tapşırığına uyğun olaraq, ünvanlı dövlət sosial yardımı proqramının gençləndirilməsi işləri davam edir. Təkcə aprel ayında əlavə olaraq 10 min ailə bu proqramla əhatə olunub, ünvanlı yardım alan ailələrin sayı 80,5 minə (335 min ailə üzvü) çatıb və bu artım dinamikası davam edir. Bununla bərabər, ünvanlı yardımın təyinatı şərtlərinin yumşaldılması, sosial yardımın alınması ilə bağlı müraciət prosedurunun aztəminatlı insanlar üçün daha rahat və sadə olması üçün qanunvericiliyə dəyişiklik layihələri də artıq aidiyyəti üzrə təqdim edilib.

S.Babayev deyib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi işləri post-karantin dövründə davam edəcək, may ayında isə yeni DOST mərkəzinin açılışı planlaşdırılır.

Dövlət başçısının tapşırığı ilə ödənişli ictimai işlər proqramının genişləndirildiyini vurğulayan nazir bu işlərə cəlb edilənlərin sayının 2,4 dəfə artırılaraq 37 mindən 90 minə çatdırılması işlərinin aparıldığını deyib. O, son bir neçə gündə 37 mindən əlavə 14 minədək şəxsin də ödənişli ictimai işlərə cəlb olunmaqla, bu işlərə cari ildə cəlb olunanların sayının artıq 51 minə çatdığını qeyd edib. Bu istiqamətdə ciddi nəzarət tədbirlərinin gücləndirilməsinin də vacibliyini vurğulayıb, bununla əlaqədar müvafiq struktur bölmələrinə tapşırıqlarını verib.

Pandemiya dövründə həm dövlət, həm də özəl sektorda iş yerlərinin qorunmasına nail olunduğunu deyən S.Babayev xüsusilə müsbət tendensiyanın davamı kimi, bu ilin əvvəlindən əmək müqavilələrinin sayının 85,4 min artdığını bildirib. O bu artımın əsasən qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidlə bağlı olduğunu qeyd edib. Yeni müqavilələrin əsasən hansı sahələr üzrə bağlanmasının təhlilinin aparılmasını, yeni bağlanan müqavilələrə post-karantin dövründə xitam verilməməsi üçün "Əmək müqaviləsi bildirişi" e-sistemi üzərindən ciddi nəzarətin həyata keçirilməsini tapşırıb.

S.Babayev vurğulayıb ki, dövlət başçısının humanist siyasətinin nəticəsi olaraq, bu gün təkcə işsizlər deyil, onlarla bərabər bu vaxta qədər qeyri-formal şəkildə, yəni əmək müqaviləsi olmadan işləmiş və elə bu səbəbdən də xüsusi karantin rejimində dərhal işini itirmiş insanlar da birdəfəlik ödəmə proqramı ilə əhatə olundular. Prezident İlham Əliyevin tapşırığına əsasən, bu proqramın əhatə dairəsi 3 dəfədən çox genişlənərək 600 min nəfəri əhatə edəcək. Birdəfəlik ödəmə proqramının icra səviyyəsi son 12 gündə artıq 50 faizə çatıb. Digər tərəfdən, e-sosial.az portalının geniş funksional imkanlara malik təkmil infrastrukturu əhatəli bir proqram üzrə müraciətlərin qəbulu, emalı və birdəfəlik ödənişlərin gündəlik olaraq normal davam etdirilməsinə imkan verib.

Birdəfəlik ödəmə proqramının icra mexanizmi, proqrama edilən müraciətlər əsasında e-sosial.az portalında formalaşan geniş informasiya bazası əmək bazarı ilə bağlı yeni yanaşmalar əsasında ətraflı təhlillər aparmağa imkan yaradıb. Bu imkandan istifadə edilməklə əmək bazarı ilə bağlı ciddi təhlillər aparılmalıdır. Xüsusilə qeyri-rəsmi məşğulluğun daha çox mövcud olduğu regionlar və iqtisadi fəaliyyət sahələrinin, əhali qrupunun və s. müəyyən olunması araşdırılmalı və nəticələr əsasında təkliflər hazırlanmalıdır.

Pandemiya ilə əlaqədar digər sosial dəstək proqramlarının genişləndirildiyini qeyd edən S.Babayev bildirib ki, bu əsasda işsizlikdən sığorta ödənişlərinin təyin olunması şərtləri də yumşaldılacaq. Bununla bağlı qanunvericiliyə dəyişiklik layihəsi artıq hazırlanıb. Layihənin qəbulu imkan verəcək ki, işsizlikdən sığorta ödənişləri ilə daha çox insan əhatə olunsun. Bu il ərzində işsizlikdən sığorta ödənişlərinin şamil olunduğu şəxslərin sayının 20 minə çatdırılması nəzərdə tutulur.

S.Babayev bu il 12 min ailənin özünüməşğulluq proqramına cəlb ediləcəyini deyib.

İclasda Prezident İlham Əliyevin sosial sahə ilə bağlı tapşırıqlarının icrası istiqamətində görülən işlər və qarşıda duran vəzifələr ətraflı müzakirə olunub, nazir tərəfindən aidyyəti tapşırıqlar verilib.

# Vüqar Rəhimzadə: "Azərbaycan çox müasir enerji sisteminə malikdir"



***"İqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoyan möhtərəm Prezdentimiz İlham Əliyev regionların malik olduğu potensial imkanlardan səmərəli istifadə etmək məqsədilə regional inkişaf proqramlarının icrasını daim diqqətdə saxlayır. Dövlətimizin başçısı qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaq üçün infrastrukturun yenilənməsini, beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib amil kimi vurğulayır. Bu baxımdan son illərdə respublikamızda enerji sektorunun müasirləşdirilməsi və inkişafı istiqamətində görülən işlər miqyası və əhəmiyyəti ilə seçilir.***

"Azərenerji" ASC-nin yenidən qurulan baş idarəetmə, elm, tədris və laboratoriya kompleksinin açılışındakı nitqində Azərbaycan dövlətinin energetika sahəsinə çox böyük əhəmiyyət verdiyini önə çəkən dövlətimizin başçısı İlham Əliyev bu rəqəmi də açıqladı ki, son 16 il ərzində bütövlükdə ölkəmizdə 30-dan çox yeni stansiya tikilib. Əgər bu stansiyalar tikilməsəydi, bu gün Azərbaycan idxaldan bəlkə də 5 qat, 10 qat daha çox asılı olacaqdı." Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında söyləyib.

V.Rəhimzadə vurğlayıb ki, enerji təminatı hər bir ölkə üçün strateji sahədir. Bazar iqtisadiyyatının əsas aparıcı qüvvəsi olan sahibkarlığın inkişafında su, qaz, enerji təminatının əsas rol oynadığı inkaredilməzdir: "Ölkəmizdə əhalinin və sənaye potensialının artımı bu amili zərurət çevirir ki, energetika sahəsi daim diqqət mərkəzində olsun. Cənab İlham Əliyevin çıxışlarında da bu məqam öz əksini tapır ki, Prezident kimi fəaliyyətə başlayanda infrastruktur layihələri arasında, ilk növbədə, məhz bu sahəyə böyük diqqət göstərildi. Atılan addımlar nəticəsində Azərbaycan elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrildi. Dövlətimizin başçısı açılış mərasimindəki nitqində bu vacib məqama da diqqəti yönəltdi ki, ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, iqtisadi inkişaf, sənaye potensialımızın artması, eyni zamanda, qonşu ölkələrlə enerji xətlərinin təmin edilməsi, inşası ona gətirib çıxarıb ki, xarici investorlar artıq bu sahəyə böyük maraq göstərirlər".

Baş redaktor qeyd edib ki, Azərbaycanın hər sahədə qazandığı uğurlar beynəlxalq maliyyə qurumlarının hesabatlarında mövqeyini möhkəmləndirməsində əhəmiyyətli rol oynayır: "Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında daim liderliyini qoruyan Azərbaycanın enerji sahəsində də reytinqi diqqətçəkəndir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Forumu Azərbaycanı MDB məkanında birinci yerə layiq görüb. Dünya miqyasında isə ikinci yerdəyik. Azərbaycan bu göstəriciyə görə ən inkişaf etmiş ölkələri qabaqlayıb. Cənab İlham Əliyev uğurlarımız fonunda hədəfləri açıqlayarkən qeyd edib ki, hələ görüləcək işlər çoxdur. "Azərenerji"nin böyük planları var və hesab edirəm ki, ardıcıl siyasət nəticəsində bütün bu planlar həyata keçəcək. Beləliklə, elektrik enerjisi ilə təminat daim yüksək səviyyədə olacaq".

Vüqar Rəhimzadə onu da əlavə edib ki, görüləcək işlərdən geniş bəhs edən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, bunların təməlində generasiya güclərinin yaradılması dayanır: "Hazırda ehtiyatda ən azı 1000 meqavat generasiya gücümüz var. Mövcud stansiyaların güclərinin bərpası artıq başa çatır. Paylayıcı şəbəkənin müasir standartlara cavab verməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Cənab İlham Əliyev açılış mərasimindəki nitqində müstəqilliyinin 30 yaşı hələ tamam olmayan Azərbaycanın enerji təminatının özəl qurumların əlində olduğu dövrə də diqqət yönəltmişdir. Dövlətimizin başçısı bildirmişdir ki, bu praktika özünü doğrultmadı. Yaranmış problemləri, çatışmazlıqları aradan qaldırmaq istiqamətində ciddi addımlar atıldı və bugünkü inkişaf səviyyəsinə nail olduq. Ona görə bizim vətəndaşlar bunu bilməlidirlər və xatırlamalıdırlar. Bu gün haradan-hara gəlmişik, dünya miqyasında ikinci yerdəyik. Bu gün bizim enerji potensialımız artan iqtisadiyyatı dəstəkləyir. Təkcə bu ilin 3 ayında, - baxmayaraq ki, neftin qiyməti düşdü, koronavirus pandemiyası bizim ölkəmizə də çox böyük təsir göstərdi, - qeyri-neft sənayesi sahəsində artım 23 faizdir və bütün bu artan sənaye müəssisələri enerji tələb edir. Həm generasiya, həm ötürmə, həm dayanıqlı təchizat - bütün bunlar bu gün təmin edilir. Ona görə hesab edirəm ki, bu gün bu binanın açılışı çox böyük rəmzi məna daşıyır".

V.Rəhimzadə bu fikri də xüsusi vurğulayıb ki, günümüzün əsas çağırışlarından olan yeni iş yerlərinin yaradılması, ilk növbədə, infrastrukturun yüksək səviyyədə qurulmasını tələb edir: "Özünüməşğulluğun təminatı, kiçik və orta sahibkarlığın inkişafı məqsədilə ailə təsərrüfatlarına asan dəstəyin göstərilməsi, ABAD mərkəzlərinin sayının genişləndirilməsi və fəaliyyətlərinin yüksək səviyyədə qurulması infrastrukturun yenilənməsini daim aktuallaşdırır. Təsadüfi deyil ki, bu gün paytaxt və bölgələr arasında fərq tamamilə aradan qaldırılır. Bu gün böyük fəxr hissi ilə qeyd etdiyimiz uğurlarımızdan biri məhz qeyri-neft sektoruna investisiya yatırımının həcminin ilbəil artmasıdır. Ölkə əhalisi günümüzün əsas tələbatlarından olan enerji təminatından razılıqlarını ifadə edir. Azərbaycan çox müasir enerji sisteminə malikdir".

# Sergey Lavrov: "Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi fəal müzakirə olunur"

*Ötən il Rusiya, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlikləri başçılarının Moskva görüşündə təklif olunan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə qərarlar fəal müzakirə edilir, onların imzalanması BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası istiqamətində mühüm addım olardı. AZƏRTAC xəbər verir ki, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov bu fikri A.M.Qorçakov adına İctimai Diplomatiyaya Dəstək Fondunun nümayəndələri ilə videokonfrans formatında keçirilən dəyirmi masanın gedişində bəyan edib.*



O qeyd edib ki, Madrid prinsipləri, Rusiya tərəfindən 2010-2011-ci illərdə hazırlanan, Kazan sənədi adlandırılan sənədlər mövcuddur. "Elə layihələr vardır ki, onlar ötən ilin aprelində, Rusiya, Ermənistan və Azərbaycanın Xarici İşlər nazirlərinin həmsədrlərin iştirakı ilə Moskva görüşündə açıqlanıb və hazırda onlar fəal şəkildə müzakirə edilir", - deyə RF XİN-in başçısı qeyd edib.

S.Lavrovun sözlərinə görə, bu sənədlərdə münaqişənin nizamlanmasına mərhələli yanaşma əsasında yaxınlaşmaq, birinci mərhələdə daha aktual problemlərin həlli, Dağlıq Qarabağ ətrafında bəzi rayonların azad edilməsi və nəqliyyat, iqtisadi və digər kommunikasiyaların açılması nəzərdə tutulur. RF XİN-in başçısı əminliklə bildirib ki, bu sənədlərin imzalanması BMT TŞ-nin qətnamələrinin icrasında mühüm addım ola bilər: "Mən əminəm ki, biz bu sənədlərin imzalanması barədə razılığa gəlsək, bu, BMT-nin Təhlükəsizlik Şurasının sözügedən qətnamələrinin və bir də təkrar edirəm, müharibəni dayandırmağı və danışıqlara başlamağı tələb edən qətnamələrin icrasında mühüm addım olacaq. Danışıqlara başlanılıb, indi razılığa gəlmək lazımdır. ATƏT-in Minsk qrupunun həmsədrləri kimi biz məhz buna nail olmağa çalışırıq", - deyə Rusiyanın xarici siyasət idarəsinin başçısı vurğulayıb.

O, ATƏT-in Minsk qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqların sabitləşmiş formatını yaxşı və faydalı adlandırıb. S.Lavrov sonda deyib: "Məhz bu danışıqlarda Təhlükəsizlik Şurasının müharibəni dayandırmaq və razılaşmalara başlamaq barədə həmin tələbi həyata keçirilib".

# Xalqın dövlət başçısına inam və rəğbəti tükənməzdir



SEYFƏDDİN ƏLİYEV,
YAP Masallı rayon təşkilatının sədri

*Hər bir dövlət xadiminin, tarixi şəxsiyyətin real gücü, qüdrəti tarixin ən ağır, ən çətin dönəmlərində üzə çıxır. Azərbaycan xalqı həqiqətən xoşbəxt xalqlardandır ki, indiki son dərəcə narahat, taleyüklü bir dönəmdə ölkəmizə Prezident İlham Əliyev kimi müdrik siyasətçi, görkəmli dövlət xadimi rəhbərlik edir.*

İndi dünyanın bir çox böyük dövlətlərinin belə koronavirus pandemiyasının ağır fəsadları qarşısında zəif, naəlaac qaldığı bir məqamda, Azərbaycanda Prezident İlham Əliyevin müdrik liderliyi ilə bu təhlükənin önlənməsi, əhalinin sağlamlığının qorunması üçün ardıcıl, düşünülmüş addımlar atılıb. Nəticə göz qabağındadır. Bu gün Azərbaycan xalqı və dövləti, bəlkə də, son yüzilin ən ağır sınağından uğurla, zəfərlə çıxmaq üzrədir. Təhlükənin ilk anından "Biz birlikdə güclüyük" deyə bəyan edən və dövlətin bütün resurslarını səfərbər etməyi bacaran cənab Prezidentin tarixi xidmətləri nə qədirbilən xalqımız unudacaq, nə də əlahəzrət zaman.

Çünk son 17 il ərzində Prezidentimiz ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Xalqı ona görə Prezidentini sevir ki, O, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diqtəsi ilə hərəkət etmir, Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində öz təsdiqini tapır. 2018-ci il 11 aprel prezident seçkilərindən sonra bəyan etdiyi və tətbiqinə başladığı genişmiqyaslı və hərtərəfli islahatlar kursu sayəsində Azərbaycanın siması büsbütün dəyişməkdədir. Dövlət başçısının rəhbərliyi altında atılan irimiqyaslı adımlar xalqımız tərəfindən yüksək qiymətləndirilir və alqışlanır. Təsadüfi deyildir ki, hər gün minlərlə soydaşımız Prezidentimizin ünvanına yüzlələr minnətdarlıq məktubları göndərir və bu məktublarda ümumi bəlaya çevrilmiş pandemiyaya qarşı mübarizədə dövlət başçısının qətiyyətinə, tələbkarlığına, humanizminə, xeyirxahlığına, qayğısına və şəfqətinə heyran qaldıqlarına dilə gətirir, öz rəhbərləri ilə fəxr və qürur hissi keçirdiklərini vurğulayırlar. Xalqının qürür mənbəyinə çevrilmiş Prezident İlham Əliyev isə bəyan edir ki, bütün imkan, potensial və resurslarımızdan istifadə edib bu çətin sınaqdan da şərəflə çıxacağıq. Hal-hazırda karantin rejiminin müddətini pandemiyanın hələ də mövcudluğu şəraitində uzatsaq da, eyni zamanda, mərhələli şəkildə sosial təcrid siyasətinin yumşaldılması istiqamətində də addımlar atmaq niyyətindəyik. Əsas olan odur ki, həmrəyliyimiz və birliyimiz heç zaman olmadığı qədər ən yüksək səviyyədədir.

Həqiqət naminə onu da etiraf edək ki, xalq-prezident birliyi və ülviyyəti də bu böyük sınaq zamanında möhkəmlik testindən şərəflə çıxdı. Heç bir daxili və xarici qüvvə bu vəhdəti poza bilməz. Arxasında qalqı dayanan Prezident yenilməzdir. Bu həqiqət Azərbaycana xor baxan, qənim kəsilən, iftira və yalan toxumu səpən istənilən siyasi dairə və onun əlaltıları üçün ibrət dərsi olmalıdır.

Bəli, dövlət başçımızın müdrik liderliyi ilə bu təhlükənin arşısınnı alınması və əhalinin sağlamlığınnı qorunması yolunda düşünülmüş addımlarına dəstək olmaq üçün insanlarımız da öz üzərlərində məsuliyyət hiss etmələri vacibdir. Bütün vətəndaşlarımız məsuliyyətli davranmalı, "Evdə qal" prinsipinə əməl ounmaqla digər insanların da bu təhlükədən yayınmasına nail olmalıyıq.

# "Bu gün regionda sülh və təhlükəsizlik üçün ən böyük təhdid Ermənistanın işğalçılıq siyasətidir"



Bütün dünyaya məlumdur ki, Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini işğal edib və uzun illərdir ki, işğalçılıq siyasətini davam etdirir. İşğal faktı nəticəsində Azərbaycanda bir milyondan çox insan öz doğma yurdlarında yaşamaq hüququndan məhrum edilib. Belə bir şəraitdə işğalçı Ermənistanın hər hansı təhlükəsizlik, sülh barədə fikirlər səsləndirməsi imitasiyadan başqa bir şey deyil.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. Sevinc Fətəliyeva bildirib ki, Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə mərhələli yanaşma ilə bağlı səsləndirdiyi fikirləri Ermənistan öz "məntiqi" ilə izah edir. İşğalçı ölkənin xarici işlər nazirinin açıqlaması bunu deməyə əsas verir.

"Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti münaqişənin mərhələli şəkildə həllinin tərəfdarıdır. Dövlətimizin mövqeyi ondan ibarətdir ki, ilk növbədə işğalçı hərbi qüvvələr torpaqlarımızdan çıxarılmalı, dinc insanlar, məcburi köçkünlər öz yurdlarına qayıtmalıdırlar. Bundan sonra isə ölkəmizin ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın statusu müəyyənləşdirilə bilər. Ermənistan öz müqəddəratını təyinetmə prinsipinə öz "məntiqi" ilə yanaşır. Halbuki, bu məsələlər beynəlxalq hüquqda tam təsbit olunub. Öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə xələl gətirə bilməz. Üstəlik, erməni xalqı bir dəfə öz müqəddəratını təyin edib", - deyən deputat qeyd edib ki, bu gün regionda sülh və təhlükəsizlik üçün ən böyük təhdid Ermənistanın işğalçılıq siyasətidir.

Sevinc Fətəliyeva qeyd edib ki, işğalçı siyasət yürütdüyü halda Ermənistanın hakimiyyət nümayəndələrinin sülhdən danışması səmimi deyil, beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyır: "Əgər həqiqətən Ermənistan sülh istəyirsə, işğalçılıq siyasətinə son qoymalı, işğal etdiyi Azərbaycan torpaqlarından öz hərbi birləşmələrini çıxarmalıdır".

# Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan XİN başçılarının görüşü ilə bağlı bəyanat yayıblar

ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistanın Xarici İşlər nazirlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə videokonfrans formatında görüşü ilə bağlı birgə bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a ATƏT-dən məlumat verilib. Bəyanatda qeyd edilir ki, Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov, Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan, ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popov (Rusiya Federasiyası), Stefan Viskonti (Fransa) və Endryu Şofer (ABŞ) bugünkü birgə videokonfrans da daxil olmaqla, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə martın ortalarından sıx məsləhətləşmələr keçirir.




Məsləhətləşmələrin gedişatında iştirakçılar qlobal böhranın regionun səhiyyə sisteminə və son hadisələrə təsirini müzakirə ediblər. Onlar, həmçinin Cenevrədə bu ilin 30 yanvarında yayılmış birgə bəyanata uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində növbəti addımları nəzərdən keçiriblər.

Etiraf edilib ki, COVID-19 pandemiyası nəticəsində yaranmış fövqəladə vəziyyətə görə daha əvvəl uyğunlaşdırılmış humanitar tədbirlərin həyata keçirilməsi təxirə salınıb. Həmçinin nazirlərin şəxsi görüşləri və həmsədrlərin Cenevrədə razılaşdırılmış regiona səfərləri təxirə salınıb. Bununla belə, bu tədbirlərin hazırlığı üzrə lazımlı iş davam edir.

Həmsədrlər indiki şərtlərdə atəşin dayandırılmasına ciddi riayət etməyin və fitnəkar hərəkətlərdən çəkinməyin əhəmiyyətini vurğulayıblar və tərəfləri gərginliyin sonrakı dövrdə azaldılması üçün tədbir görməyə çağırıblar.

# Minnətdarlıq məktubları, yaxud vətəndaş siyasi prosesdə iştirak edir

## İlham Əliyevin tərifə ehtiyacı yoxdur! Ancaq Prezidentin xalqın münasibətinə və rəyinə ehtiyacı var

***Son zamanlar kütləvi informasiya mənbələrində, sosial şəbəkələrdə və digər informasiya resurslarında ayrı-ayrı vətəndaşların, fərd və ya cəm halda Azərbaycan Prezidentinin ünvanına göndərilən minnətdarlıq müraciətləri müzakirə mövzusuna çevrilmişdir. Minnətdarlıq ifadə olunan belə məktubların hardan qaynaqlandığı, hansı səbəbdən ortaya çıxdığı və niyə məhz indi daha çox kütləvi hal aldığı sualları sosial ekspertlərin diqqətindən yayınmayıb. Resurs Analitik İnformasiya Mərkəzi tərəfindən mütəmadi olaraq aparılan sosioloji sorğular və tədqiqatlar da təsdiq edir ki, dövlətin demək olar ki, bütün strukturlarını əhatə edərək ölkədə aparılan geniş islahatlar və yeniləmə siyasəti xalqda iqtidara rəğbəti xeyli dərəcədə artırmış və Azərbaycan Prezidenti İlham Əliyevin reytinqini və şəxsiyyətinə inamı böyük dərəcədə gücləndirmişdir.***




**Rasim Quliyev, Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri**

### MİNNƏTDARLIQ MƏKTUBLARI NƏDİR, VƏ BU DÖVLƏTƏ VƏ VƏTƏNDAŞA NƏ VERİR?

Vətəndaş, yəni hakimiyyətin mənbəyi olan xalqın nümayəndəsi dövlətin subyektlərinə, o cümlədən dövlətin atributu, simvolu və ali təmsilçisi olan Prezidentə müraciət edir. Birincisi bu müraciətin özü vətəndaş-dövlət, xalq-iqtidar münasibətinin ahəngdar nümunəsidir. İkincisi, vətəndaş öz müraciətində hər hansı rəy, istək və yaxud iradlarını ifadə edir, dolayısı ilə dövlət idarəçiliyi, siyasi yönətim prosesinə münasibət ifadə edərək bu prosesin iştirakçısına çevrilir. Yəni vətəndaşın rəyi sosial münasibətin ifadəsi, yürüdülən siyasətə xalqın verdiyi real qiymətdir ki, bu da hər hansı bir iqtidarın diqqətdə saxladığı və nəzərə alınması vacib olan məsələlərdəndir.

Vətəndaşlar dövlətin idarəçiliyini səs verərək həvalə etdiyi iqtidarın sonrakı siyasi, iqtisadi, sosial və digər yönətimlərinə də münasibət ifadə edərək fikir, rəy, təşəbbüs, tənqid və dəstək-minnətdarlıq bildirməklə, hazırki qlobal internet məkanında əslində bu həm asanlaşmış, həm də gizlədilməsi mümkünsüz olan bir dövrdə proseslərdə fəal iştirak edə bilir.

### NİYƏ MƏHZ İNDİ DAHA AKTİV?

Hazırda dünyanın düzəninə və düşüncəsinə hakim kəsilən pandemiya insanlara gətirdiyi bir çox yeni vərdişlər, sosial-ictimai münasibətlər, mənəvi-ruhi, psixoloji keyfiyyətlərlə yanaşı, iş, qazanc cəhdindən məhrum olaraq evdə qalıb informasiya trafiki, informasiya bolluğu və yeganə virtual imkanında hərəkət etməyə başlamasıdır. Yəni dünyanın haliyədəki insanı informasiyanın içərisində, insanların informasiya prosesində fəal olmasının bir səbəbi də budur ki, adamların siyasi və digər prosesləri izləməyə və təhlil etməyə daha çox vaxtları vardır.

Hər bir ağıllı iqtidar apardığı siyasətin nəticəsi və effekti ilə maraqlanır. İlham Əliyev daha çox siyasətini milli maraqlar üzərində quraraq və birbaşa sosial izdihamlarla ünsiyyətə girərək, müxtəlif vasitələrlə, həm sosial şəbəkələrdən, kütləvi informasiya daşıyıcıları vasitəsilə, həm də hər imkanda canlı təmaslara üstünlük verərək məmurlara və sadə xalqa çağırış edərək nümunə və örnək verir. Beləliklə, horizontal müstəvidə birbaşa xalq-iqtidar münasibəti və və dialoqun yaranmasına nail olur ki, bu da şəffaflığa və məmur özbaşınalığına, neqativ halların yaranmasının, məmurların manevr imkanlarının məhdudlaşmasına yönəlmiş addımlar kimi qiymətləndirilir. Hakimiyyətin mənbəyi xalqdır və dövlətin ən qiymətli sərvəti - Azərbaycan vətəndaşıdır. Dövlətin zaman-zaman sosial siyasətində yeniliklər və sosial paketin coğrafiyasının genişlənməsi müasir dayanıqlı inkişafın adekvat təzahürüdür. Bu nəticə deyil, bir prosesdir, minnətdarlıq məktublarının bir səbəbi isə sosial siyasətin gücləndirilməsidir.

### PREZİDENT İLK SƏRƏNCAMLA SOSİAL YARDIM AYIRDI

2018-ci ildə qəbul olunmuş, 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına cənab İlham Əliyevin sərəncamları ilə geniş sosial paket elan edildi. Bu sosial paket 3 milyondan çox insanı əhatə edərək minimum əməkhaqlarının, pensiya təminatlarının, təqaüdlərin, sosial müavinətlərin və s. artması, problemli kreditlərin vətəndaşların xeyrinə həll olunması ilə nəticələndi. Prezident seçiləndən dərhal sonra sosial paketin ilk təzahürü Cənab Prezidentin 2018-ci il aprelin 18-də imzaladığı sərəncamla başladı. Aztəminatlı və imtiyazlı ailələrə, həmçinin şəhid ailələrinə, qarabağ əlillərinə və məcburi köçkünlərə birdəfəlik ödəmələr həyata keçirilmişdir.

Sosial paket elan edilərkən Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifahı halının yaxşılaşdırılmasına sərf ediləcəyini bəyan etmişdi. 2019-cu ilin sürətli iqtisadi artım ili olacağı da əvvəlcədən planlaşdırılmışdı. İin 1-ci rübünün iqtisadi yekunları bunu bir daha sübut etdi. Belə bir şəraitdə sosial addımların atılmasının iqtisadi əsasları da təmin edilmişdir. Dövlət başçısının keçən ilin 18 iyun tarixli sərəncamları ilə ilin əvvəlindən elan edilmiş sosial paketin yeni mərhələsi başlandı və yeni sərəncamlar 2 milyon vətəndaşı əhatə etmişdir.

Bütövlükdə, prezident sərəncamları ilə əmək haqlarının artımı büdcədən əlavə olaraq 1 milyard manat vəsaitin ayrılmasına səbəb oldu. Dövlət büdcəsinin gəlirlərinin indiki artım sürəti və həcmi sosial paketin büdcə vasitəsilə tamamilə maliyyələşməsinə imkan yaratdı. Əməkhaqlarının artımı həm də ölkədə iqtisadi aktivliyi artırdı. Ölkədə minimum pensiyanın 72 faiz artırılması nəticəsində 660 min pensiyaçımızın pensiyalarında ciddi şəkildə artım oldu və minimum pensiyanın alıcılıq qabiliyyəti parametri üzrə Azərbaycan MDB məkanında birinci yerdə qərarlaşdı. Əlavə olaraq əməkhaqqı artımları ilə bağlı, xüsusi şərtlərlə pensiya alan 90 min pensiyaçımızın da pensiyaları orta hesabla 31 faiz artdı və bu da ümumilikdə ötənilki paketin 750 min insanı əhatə etməsini təmin etdi.

Prezident İlham Əliyevin 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə sosial paketin davamı olaraq martın 1-dən minimum əmək haqqının 38,5 faiz (50 manat) artırılaraq 180 manata çatdırılması, muzdla çalışanların azı 40%-nin və ya 600 mindən çox işçinin əmək haqlarının artmasına imkan verib. Prezident cənab İlham Əliyevin xüsusi qayğısı hazırda 1,3 milyon nəfərdən ibarət olan pensiyaçıları da əhatə edir. Yanvar və fevral aylarında növbəti dəfə pensiyaların artımı ila bağlı əlavə olaraq 15 milyon manat vəsait ayrılmışdır. Minimum pensiya məbləğinin artırılması ümumilikdə 233 min pensiyaçını o cümlədən, 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi əhatə edərək, onlardan 9 min nəfərin pensiyasında 93 faiz , 26 min nəfərin pensiyasında 30 faiz, 74 min nəfərin pensiyasında 16 faiz artım özünü göstərmişdir. Bu artımdan sonra alıcılıq qabiliyyəti indeksi üzrə ölkəmiz MDB məkanında ilk iki yeri bölüşür. Azərbaycanda minimum əmək haqqı alıcılıq qabiliyyəti pariteti ilə götürüləndə Şərq Tərəfdaşlığı ölkələri arasında birinci yeri tutur. Azərbaycanın Davos Forumunun hazırladığı "Qlobal Rəqabətlilik hesabatı"na görə dünyada 144 ölkə arasında 39-cu, MDB məkanında isə 1-ci yerə çıxmasını qeyd etmək lazımdır.

2019-cu ilin əvvəlində 40 min ailə bu sosial paket proqramından yararlanırdısa, ilin sonunda artıq ailələrin sayı 72 min oldu. Yəni, bir il ərzində çox ciddi şəkildə, təqribən iki dəfə artım əldə edildi. Digər tərəfdən, 2019-cu il üçün dövlət büdcəsindən ayrılmış vəsait çərçivəsində 85-90 min ailənin ünvanlı sosial yardımla əhatə olunması planlaşdırılıb həyata keçirildi. Bu da ünvanlı sosial yardım proqramının əlavə olaraq daha 20 faiz genişləndirilməsi deməkdir. Bununla bərabər, kriteriyaların yumşaldılması və bu istiqamətdə əhaliyə dəstək verilməsi barədə torpaq pay mülkiyyəti ilə bağlı yüngülləşmələr tətbiq olundu, sırf o islahatın nəticəsində əlavə 7 min ailə ünvanlı sosial yardım proqramına daxil ola bildi. Əgər 2018-ci ildə ünvanlı sosial yardımın məbləği 160 manat idisə, ötən il 200 manata çatdı. Bu il üçün bu rəqəm 215-220 manat arasında olacaq. Deməli hər ay ünvanlı sosial yardım alanlar bu qədər vəsaitlə təmin olunacaqlar.

2019-cu ilin fevralında Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlara əsasən 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi məqsədlərinə 1,5 milyard manat ayrılmışdır.

Dövlət başçısının "Minimum aylıq əmək haqqının artırılması haqqında" sərəncamına əsasən ölkədə minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılmışdır. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir. Bu da dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə müəyyən edilmiş əməkhaqqının orta hesabla 40 faiz artırılmasına imkan verir. Ümumilikdə minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə etmişdir. Əvvəldə qeyd etdiyimiz kimi, Prezident İlham Əliyevin fevral ayında imzaladığı sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmışdı. Bu isə o zaman 600 minədək insanı əhatə etmişdi. Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramı təkcə bu il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması əhalinin rifahına ciddi dəstək olan mühüm sosial uğura nail olmağa imkan vermişdir. Ölkədəki mütərəqqi sosial siyasəti özündə növbəti dəfə bariz şəkildə ehtiva edən keçən ildə qəbul olunmuş son qərarlar ümumilikdə 2 milyon insanı əhatə etmişdir.

### AZƏRBAYCAN DÖVLƏTİ PANDEMİYANIN YARATDIĞI PROBLEMLƏRİN ÖHDƏSİNDƏN GƏLƏ BİLDİ

Azərbaycan Prezidenti İlham Əliyev koronavirus pandemiyası

# Minnətdarlıq məktubları, yaxud vətəndaş siyasi prosesdə iştirak edir

## İlham Əliyevin tərifə ehtiyacı yoxdur! Ancaq Prezidentin xalqın münasibətinə və rəyinə ehtiyacı var



dövründə aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll edilməsi ilə bağlı iki aylıq birdəfəlik ödəmələr üçün tapşırıq verdi. İlkin mərhələdə nəzərdə tutulurdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Sonradan ümumi vəziyyəti nəzərə alınaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayı 600 minə çatdırıldı. Eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlar bu ödəmədən yararlanacaqlar. Onların da problemlərini dövlət öz üzərinə götürür. Yeri gəlmişkən dünyanı ağuşuna alan virus epidemiyasından öz vətəndaşlarını qorumaq üçün əvvəlcədən, vaxtında qabaqlayıcı tədbirlər həyata keçirən Azərbaycan dövləti Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində görülən işlər nəticəsində xalqın milli birliyi və sağlamlığının qorunmasına nail olmuşdur. Hazırda yaranmış xaosdan xilas olmaq üçün yardım axtaran Qərb və bir çox dövlətlərdən fərqli olaraq Azərbaycan dövləti pandemiya ilə mübarizədə ÜST-ı vasitəsilə yardım etmiş və öz vətəndaşlarımızın sağlamlığı və bu istiqamətdə tədbirlər proqramının həyata keçməsi üçün müxtəlif sərəncamlarla 6milyard 34 milyon 800min manat dövlət büdcəsindən vəsait ayrılmışdır ki, bu sosial proqram davam etməkdədir. Azərbaycanın epidemiyanın başlanğıcında ÜST- ilə əməkdaşlığa başlaması dövlətimizin beynəlxalq proseslərdə aktiv fəaliyyətinin və çevik beynəlxalq siyasət yürüdə bilmək bacarığının göstəricisidir. Nəticə isə uğurlu və vətəndaşın xeyrinədir.

Dövlətin qüdrəti artdıqca sosial siyasət də yeni keyfiyyətlər kəsb etməyə başlamışdır. Bunun üçün daxili sabitlik və güclü stabil iqtisadi vəziyyət, düzgün və çevik xarici siyasət başlıca şərtdir. Minnətdarlıq məktublarının qaynaqları kimi Azərbaycanın xarici siyasətindəki çevik diplomatiyanın da rolu böyükdür. Beynəlxalq siyasətin subyekti olan Azərbaycan bütün qlobal proseslərdə aktiv iştirakçı olmaq əzmi və hüququ əldə etmişdir ki, bu da dövlətin nüfuzunun və gücünün göstəricisidr. Ermənistan-Azərbaycan münaqişəsində, artıq, rəqabət müqayisəolunmaz dərəcədə dəyişilmişdir. Valday diskussiya klubunda, ardınca MDB-nin Astana sammitində, sonra isə Münhen konfransında Azərbaycan Prezidenti Ermənistan rəhbərinə açıq və məğlubedici diplomatik zərbə vuraraq "Qarabağ Azərbaycandır nida" deməklə milli iradəni nümayiş etdirdi. Və bu jest, əslində Ermənistanı siyasi meydanda oynadanlara Prezident İlham Əliyevin açıq mətn ilə verilmiş birbaşa mesajı idi. Ermənistanla müharibə meydanında dönüş nöqtəsi olan aprel döyüşlərindən sonra Dövlətin milli iradəsinin və qüdrətinin nümayişi xalqın öz dövlətinə və İlham Əliyev iqtidarına inamını gücləndirmişdir.

Hazırki qloballaşan informasiya trafikində vətəndaşların düşünməyə, təhlil etməyə və məlumatlanmağa kifayət qədər imkanları olduğu üçün, həm də elektron vasitələrlə proseslərə münasibət bildirmək imkanı əldə edən vətəndaşlar öz sosial münasibətini asanlıqla ifadə etmək imkanı qazanmışlar. Cəmiyyətdə milli həmrəylik və mərhəmət hisslərinin yüksəlməsi-humanizm prinsiplərinin təbliği üçün ilk nümunəvi addımların da iqtidardan-İlham Əliyevdən gəldiyi cəmiyyətdə çox müsbət ideoloji mesaj rolu oynadı. Və bu prosesə çevrilərək bütün cəmiyyəti əhatə etdi.

Minnətdarlıq məktubları insanların, cəmiyyətin sabaha inamının və ümidinin ifadəsi kimi də dəyərləndirilə bilər. İnsanlar artıq epidemiya ilə mübarizədə öz dövlətinin düzgün qurulmuş siyasətinin müsbət nəticəsinə inanaraq, postpandemiya dövrünə də ümidlə baxırlar.

## "Vətəndaşlarımızın rifahı Prezidentin siyasətinin başlıca istiqamətidir"



"Nəzərdə tutulan vəsaitlər də artıq Maliyyə Nazirliyi və onun xəzinədarlıq orqanları tərəfindən operativ şəkildə vətəndaşlarımıza çatdırılır". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü deputatı Aydın Hüseynov ölkədə son dövr ərzində sosial istiqamətdə görülən işlərdən danışarkən deyib.

O bildirib ki, pandemiyanın təsirlərinin aradan qaldırılması istiqamətində çox mühüm qabaqlayıcı tədbirlər həyata keçirilib: "Burada ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi ölkə rəhbərinin başlıca məqsədi Azərbaycan vətəndaşlarının sağlamlığının qorunmasıdır. Mən hesab edirəm ki, bu istiqamətdə görülən işlər çox müsbətdir. Digər tərəfdən də vətəndaşlarımızın sosial qayğılarının aradan qaldırılması, onların ailə büdcələrinin formalaşdırılması istiqamətində atılan addımlar da mühüm addımlardır. Bu istiqamətdə də həm muzdlu işçilərə, həm də mikrosahibkarlara, eləcə də işləməyən, iş fəaliyyəti məhdudlaşan şəxslərə də maddi dəstəklər edildi".

Millət vəkili vurğulayıb ki, bu aprel ayı üçün nəzərdə tutulan vəsaitlər də artıq Maliyyə Nazirliyi və onun xəzinədarlıq orqanları tərəfindən operativ şəkildə vətəndaşlarımıza çatdırılır: "Burada da qeyd edək ki, belə bir hallar ola bilər ki, vətəndaşlarımızın bəziləri bunu vaxtında ala bilməsinlər, lakin, yekunda bu vəsaitlərin hər birini, nəzərdə tutulan məbləğin hər birini vətəndaşlarımız alacaq. Buna biz tam əmin ola bilərik".

Aydın Hüseynov qeyd edib ki, digər tərəfdən bu kimi tədbirlərin həyata keçirilməsi bir daha onu göstərir ki, ölkədə aparılan siyasət tamamilə vətəndaşlarımızın rifahına söykənib: "Ölkə siyasətinin mərkəzində Azərbaycan vətəndaşları və onların sağlamlığı dayanır. Eyni zamanda onların sosial qayğıları da bura daxildir. Bu Azərbaycan Respublikası Prezidentinin siyasətinin başlıca istiqaməti və xətdidir".

## "Ən ucqar kəndlərimizdə belə 24 saat enerji var"

"Bu gün bizim ən ucqar kəndlərimizdə belə 24 saat enerji var. Bu təbii ki, ölkədə görülən tədbirlərin nəicəsidir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Regional məsələlər komitəsinin üzvü, deputat Tahir Rzayev ölkədə enerji sahəsində görülən işləri dəyərləndirərkən deyib.



Millət vəkilinin sözlərinə görə, əvvəllər Azərbaycan enerjini digər ölkələrdən idxal edirdisə, indi Azərbaycan özü də enerji ixrac edən ölkələrdən biridir: "Hazırda Azərbaycanda yeni elektrik stansiyaları tikilib. Bu həm Azərbaycanın enerji təhlükəsizliyi üçün, həm də ölkənin əhalisinin enerji ilə vaxtı-vaxtında təmin olunması üçün çox vacibdir. Bir neçə il bundan əvvəli biz xatırlasaq, enerji sahəsində çox ciddi problemlərə nəzər salmış olarıq. Hətta, insanlara gündə 2, 4, 5 saat işıq enerjisi verilirdi və əksər kəndlərimizdə enerji qıtlığı hiss olunurdu. Ancaq bu gün bizim ən ucqar kəndlərimizdə belə 24 saat enerji var. Bu təbii ki, ölkədə görülən tədbirlərin nəicəsidir".

Tahir Rzayev onu da əlavə edib ki, ölkə rəhbəri daima bu sahəyə xüsusi diqqət yetirir: "Bu digər tərəfdən insanların rahatlığı üçün də çox vacibdir. Çünki, bu gün məişət texnikası, müəssisələr, emal sahələrinin hamısı enerji ilə idarə olunur. Çox yaxşı haldır ki, ölkə rəhbəri özü də müşavirələrdə xatırladır ki, biz mütləq şəkildə enerji istehsalını artırmalıyıq. Bu sahədə yeni stansiyaların qurulmasına böyük ehtiyac var. Bütün bunları nəzərə alaraq ölkədə sahibkarlığın da inkişafını müşahidə edirik. Eyni zamanda emal sənayesi də inkişaf edir ki, bu enerjisiz mümkün deyil".

Deputat qeyd edib ki, bütün bu proseslər hazırda iqtisadi inkişafa da böyük təkan verir: "Əgər bizim regionlarda fasiləsiz işıq enerjisi varsa orada emal müəssisələri də işləyir, məhsul istehsal olunur. Bu çox müsbət haldır və belə halların olması, ölkə rəhbərinin bu sahədə həyata keçirdiyi tədbirləri pozitiv dəyərləndirirəm".

*Nigar Məmmədova*

# Evdəkiləri virusdan necə qorumalı?

***Özünü təcrid vəziyyətində belə, bir çoxumuz bəzi hallarda mənzillərimizi tərk etmək məcburiyyətində qalırıq. Məsələn, bir mağazaya, xəstəxanaya və ya aptekə getməli oluruq. Etiraf edək ki, belə hallarla kiminsə qarşılaşmayacağını, yaxud ehtiyac duymayacağını heç kim deyə bilməz. Çünki, ən azından ərzaqla, gündəlik tələbat malları ilə bağlı ehtiyacı kimsə təkzib edə bilməz.***



Doğrudur, evi tərk etməklə bağlı belə hallarda yeni koronavirusa yoluxma riskindən qorunmaq üçün bir sıra tövsiyələr mövcuddur və bu barədə ictimaiyyət məlumatlandırılıb da. Məsələn, şəxsi profilaktikanın ən vacib qaydası olaraq, insanların sıx olduğu yerlərdən uzaq durmaq, məsafə saxlamaq, qoruyucu vasitələrdən istifadə etmək, evə gəldikdən sonra isə əllərin və üzün hərtərəfli yuyulması kimi qaydaların gözlənilməli, eyni zamanda qaçılmaz olduğunu hamımız artıq bilirik. Bu barədə çox danışılıb, çoxlu məlumatlar da verilib. Bəs virusun da yaşama müddətinin uzana biləcəyi üst geyimləri haqqında nə bilirik və bu barədə nə demək olar?

Ümumiyyətlə, evə gələrkən virusu təkcə əlimiz və üzümüzlə gətirməyə də bilərik axı. Belə olan halda, nə etmək, necə etmək lazım oduğu hər kəsi ciddi şəkildə maraqlandırır.

Evin kandarında dezinfeksiya

Əvvəla, qeyd etmək lazımdır ki, COVID-19 adlı məkrli infeksiyaya qarşı həm paytaxt küçələrində, həm də müxtəlif obyektlərdə, hətta bəzi mənzillərdə də fəal şəkildə dezinfeksiya həyata keçirilir. Özü də bu dezinfeksiya mütəxəssislər tərəfindən edilir. Xüsusilə də yollar, səkilər, dayanacaq yerləri, həyətlər, keçidlər, körpülər, tunellər dezinfeksiya olunur.

Əlaqə ola biləcək səthlər, zibil qutularının yükləmə qablarının tutacaqları, qapı tutacaqları, lift düymələri, poçt qutuları, pəncərə çərçivələri və sair yerlərin dezinfeksiya edilməsinə daha böyük ehtiyac var. Elə bu səbəbdən də həmin yerlər xüsusi olaraq nəzərə alınmalıdır və alınır da. Eyni zamanda tövsiyə olunur ki, dezinfeksiya işləri yalnız dezinfeksiyaedicilərlə aparılmalıdır. Çünki, bütün bu işlər insanlar, heyvanlar və ətraf mühit üçün tamamilə təhlükəsizdir və onlar eyni zamanda hər hansı bir səthə zərər də verə bilmirlər.

İctimai yerlərin dezinfeksiyası məsələsi əslində koronavirus infeksiyasının yayılmasının qarşısını almaq üçün əlavə bir tədbirdir. Etiraf edək ki, bu tədbirlər nəinki əyalətlərimizdə, nəinki paytaxt Bakıda, dünyanın heç bir ölkəsizndə də bu vaxta qədər aparılmayıb. Ola bilsin kimsə, nə vaxtsa, hansısa şəhərin su ilə yuyulmasını, təmizlənməsini görə bilər. Amma şəhər küçələrində, təmas olan yerlərdə dezinfeksiya işləri aparıldığının kimsə bu zamana qədər şahidi olması təəccüb doğurar.



Artıq hamımız bu dezinfeksiya işlərinin şahidi oluruqsa, deməli vəziyyət tamamilə başqadır. Bir az daha dəqiq desək ciddidir. İndi küçə və meydanlarımızın dezinfeksiyası kimi görünməmiş işlər şəhərdə müntəzəm olaraq həyata keçirilirsə, deməli, vəziyyət həm də nəzarət altındadır və hökumət özü bu məsələlərə diqqərlə yanaşır. Hər yer diqqətlə təmizlənir və mümkün risklərin qarşısının alınması üçün ciddi şəkildə tədbirlər görülür. Bir sözlə, hökumət özü virusun nəinki mənzillərə, hətta mənzillərin kandarına belə yaxınlaşmaması üçün tədbirlər görür. Amma, bunu da nəzərə almaq lazımdır ki, hər bir kəs ayrı-ayrılıqda öz-özünün, öz yaxınlarının, evinin bu virusdan qorunması üçün diqqətli olmalıdır.

Qeyd etdiyimiz kimi, necə ki, hökumət küçə və meydanları parkları dezinfeksiya etməklə bizim evimizi, onun kandarından da kənardan belə qoruyur, hər bir kəs də beləcə evin kandarına çatana qədər belə qorunmağı özünün ən başlıca işi, məsuliyyəti hesab etməlidir.

Evə virusu necə buraxmamalı?

Şəhərin, küçələrin və girişlərin dezinfeksiya edilməsi şirkətlər tərəfindən aparılırsa, evin təhlükəsizliyi üçün sözsüz ki, sahibinin özü cavabdehdir. Bu məsələ ilə əlaqədar kifayət qədər tövsiyələr var. Bəzi mütəxəssislər üst geyimləri növbəti istifadəyə qədər səliqəli və germetik olaraq plastik torbalarda qablaşdırmağı məsləhət görürlər. Üstəlik, evdən çıxarkən istifadə edilən minimum istifadə etmək məsləhətgörülür. Digər mütəxəssislər çölə çıxarkən istifadə olunanları balkona asıla biləcəyini doğru hesab edirlər. Hesab edirlər ki, günəşli bir gündə, gün ərzində onları birbaşa günəş işığında isitmək kifayətdir. Pəncərədən çöldə buludlu, rütubətli hava olduqda, ən azı üç gün havalandırmaq lazım olduğu bildirilir.

Bir çox mütəxəssislər düşünürlər ki, üst geyimlərini spirtlə və tərkibində xlor olan məhlulla dezinfeksiya etmək mümkündür. Amma o da qeyd olunur ki, belə vasitələrə çox da əhəmiyyət verilməmə-dir. Çünki, spirt və xlorla belə dezinfeksiyaya paltarların, üst geyimlərinin nə qədər davam gətirəcəyi də hələ bəlli deyil. Küçədə istifadə olunan ayaqqabıların spirtlə nəmləndirilmiş salfetlərlə silinməsi də tövsiyyə olunur.

Həmçinin mütəxəssislər tövsiyyə edirlər ki, evin kandarında, daha dəqiq desək, giriş qapısı qarşısına dezinfeksiya edici məhlulla, yaxud xlor qarışıqlı maddə ilə isladılmış, nəmləndirilmiş dəsmal, yaxud ayaqaltı xalça sərilə bilər. Qeyd olunur ki, bu, xüsusən evə daxil olanların ayaqqabılarını silmək üçün vasitə hesab oluna bilər.

Əlalxüsus, tövsiyyə olunur ki, mənzilə daxil olarkən, dərhal otaqlara keçmək lazım deyil və qapı qarşısında ayaqqabıları sildikdən, üst geyimi çıxardıqdan, əlləri antiseptiklərlə, məsələn spirtlə dezinfeksiya etdikdən sonra içəri keçmək məsləhətdir. Çünki, ən azından yuyunmaq üçün hamama, vanna otağına, yaxud hansısa bir qapalı məkana keçərkən əllərin dəstəyə vurulacağı təkzib edilə bilməz. Həmçinin, üst geyimin də hansısa otaqda olan divan, stolstul üstünə, eləcə də mebelin üzərinə atılması da tövsiyyə olunmur.

Əfsus ki, hələ də koronavirusun səthlərdə hansı müddətə və şəraitə qədər qalması, mövcudluöu barədə dəqiq bilgi yoxdur. ÜST-nin rəsmi saytında virusun səthlərdə qalma müddəti barədə məlumat olsa da bunun konkret, dəqiq məlumat olması şübhəlidir. Amma virusun səthin növündən asılı olaraq bir neçə saatdan bir neçə günə qədər qalma ehtimalı var. Məhz bu baxımdan da son dərəcə diqqətli olmaq və son müddəti gözləmək də məqsədəuyğundur.

Eyni zamanda virusun bədəndən, orqanizmdən kənarda müsbət 20 dərəcədən aşağı temperaturda qala bildiyi də məlumdur. Bu baxımdan otaq temperaturunu müsbət 20 dərəcədən yuxarı saxlamaq da məsləhət görülür. Həmçinin qeyd olunur ki, əgər pəncərədən çöldə havanın hərarəti qeyd olunduöu kimi çüsbət 20 dərəcədən yuxarıdırsa, o zaman otağın havasını gün ərzində bir neçə dəfə dəyişmək tapşırılır.

Bununla yanaşı, mütəxəssislər insanların şəxsi gigiyenalarına da diqqət yetirmələrini tövsiyyə edirlə. Beləki, evdə, ailə daxilində belə hər bir kəs üçün özünə məxsus üz dəsmalı və tez-tez istifadə olunan vasitələr olmalı, bu vasitələr bir-birindən ayrı saxlanılmalıdır. Qeyd olunur ki, əl və üz yuyulduqdan sonra silmək üçün bir dəfə istifadə olunan salfetlərdən istifadə daha məqsədəuyğundur.

Mütəxəssislər virusun evə, mənzilə daxil olmaması, ümumiyyətlə, evdə qalmaması üçün daha çox istifadə olunan yerlərin, məsələn, səthlərin, giriş qapısının əlcəyinin, işığı yanırmaq üçün toxunulan düymənin və ümumiyyətlə mənzilə daxil olarkən ən çox toxunulan və toxunulma ühtimalı olan yerlərin spirt və digər dezinfeksiyaedici məhlüllarda isladılmış salfetlərlə silinməsini tövsiyyə edirlər. Əslində, hər kəs öz mənzilini və ümumiyyətlə, yaşadığı, olduğu yerlərin virusdan qorunması, mühafizə edilməsi, virusun daxil olmaması üçün dezinfeksiyaedici maddələrdən mütəmadi olaraq istifadə etməlidir. Çünki, mənzilimiz, qaldığımız yerlər bizim yaşayış yerimizdir ki, həmin yerləri mühafizə etmək, qorumaq özümüzün, öz yaxınlarımızın sağlamlığını qorumaq deməkdir.

***İnam Hacıyev***

# Elekton icazə alan vətəndaşların bu probleminə son qoyuldu

"icaze.e-gov.az" portalından bu günə kimi 49 min 518 təşkilat tərəfindən bu günə kimi 762 min aktiv icazə alınıb. Bəzən təşkilatlar ya icazə alınan zaman və ya onun ləğvi ilə bağlı əməkdaşlarına məlumat vermədikləri üçün həmin şəxslər postlarda saxlanılan zaman cərimələnirdilər. Bu hallar olmasın deyə biz vətəndaşlardan gələn rəyləri nəzərə alaraq, "icaze.e-gov.az" portalını "my.gov.az portalına inteqrasiya etmişik". SİA-nın xəbərinə görə, bunu e-hökumət portalının direktoru Fariz Cəfərov məlumat verib.

O bildirib ki, bu inteqrasiya çərçivəsində vətəndaşlar artıq öz my.gov.az portalında yeni şəxsi hesablarında onlara verilən icazə haqqında bildirişi görür və icazələrlə bağlı bütün detallı məlumatları ala bilirlər: "Belə ki məlumatlarda həmin şəxsin adı, soyadı, icazə verilən müddət, onun keçərli olduğu əra-



zi, əgər avtomobillə icazə alınıbsa, həmin avtomobillə bağlı məlumatlar və digər qeydlər öz əksini tapıb".

F. Cəfərov söyləyib ki, bununla yanaşı, qeyd olunan PDF formatlı arayışa QR və Barkod məlumatları da daxil edilib: "Bu məlumatları bu gün ərzində Daxili İşlər Nazirliyinin xüsusi karantin rejimi informasiya sisteminə inteqrasiyası çərçivəsində xüsusi cihazlar vasitəsilə oxunması həyata keçiriləcək. Bununla da vətəndaşlar həmin postları daha rahat və çevik şəkildə keçə biləcəklər. Bu, həm də polislərin fəaliyyətini daha çevik şəkildə qurmasına kömək edəcək. Çünki indiyədək polislər üçün də postdan keçən şəxslərlə bağlı məlumatları axtarıb tapmaq istiqamətində müəyyən çətinliklər və vaxt itkisi yaşanırdı. Bu da müəyən sıxlıqlara gətirib çıxarardı. Biz bu problemləri də etapetap həll edirik".

***Nailə Məhərrəmova***

# Covid-19 tədbirləri ilə dünya özünü təmizləyir



***Əvvəlcədən planlaşdırılmamış və heç bir hazırlıq olmayan bir qlobal təcrübə dünyamızı dəyişdirir. Dünyadakı insanlar koronavirus epidemiyasına nəzarət etmək üçün evlərində oturmağa davam etdikləri üçün havanın çirklənməsində kəskin azalma baş verib.***

Məsələn, dünyada ən çox çirklənmiş şəhərlərdən biri olan Hindistanın paytaxtı Yeni Dehlidə qalın qaranlıq çirk qatı demək olar ki, yoxa çıxıb. Onilliklərdən sonra ilk dəfə olaraq Himalay dağları şəhərdən aydın şəkildə görünüb. SİA-nın araşdırmalarına görə, ABŞ-da azot dioksid çirkliliyi 30 faizə düşüb. İtaliyanın paytaxtı Romada havanın çirkliliyi bir əvvəlki ilin eyni dövrünə görə yüzdə 49 azalıb. Ulduzların gecə daha aydın göründüyü bildirilir.

### Vəhşi həyat şəhərə enib

Dünyanın bir çox yerində şəhər və kənd sakinləri görmədikləri heyvanları görməyə başladıyıblar. Məsələn, ABŞ-ın Çikaqo və San-Fransiskoda çaqqallar səyahət etməyə başlayıb. Çili, Santyaqoda bir yaquar görünüb. İngiltərənin Uels şəhərində keçilər şəhərlərə basqın ediblər. Hindistandakı turistlər və sakinlər tərəfindən bəslənən, lakin hazırda aclıq çəkən meymunlar evlərə girməyə başlayıb.

Məlum oldu ki; İnsanlar evdə oturanda və insan fəaliyyəti azaldıqda dünya təmizlənir və təbii həyat boşluğu tez doldurmağa başlayır.

### Hər şeyin daha yaxşı necə ola biləcəyini görmək fürsətimiz oldu

Duke Universitetinin alimi Stuart Pimm məsələ barədə bunları deyib:

"Bu planetdə bəşəriyyətin nə qədər dağıntı və disbalans yaratdığını görmək bizim üçün inanılmaz bir fürsət oldu. Bu vəziyyət hər şeyin nə qədər daha yaxşı ola biləcəyini bizə sehrli şəkildə göstərdi".

Stanford Woods Ətraf Mühit İnstitutunun direktoru Chris Field, karantin dövründə ətraf mühitdəki ekoloji dəyişiklikləri qeyd etmək üçün bir qrup elm adamını səfərbər edib.

Məlumatlar yalnız hava və dənizlərdə deyil, həşəratlar, bitkilər, hava, səs çirkliliyi və işıq çirkliliyi kimi bir çox ərazidə də toplanmağa başlayıb.

İtaliya hökuməti dənizlərdə baş verən dəyişiklikləri xüsusi olaraq izləmək üçün xüsusi bir araşdırma qrupu təyin edib. Field mövzu ilə əlaqədar "Bir çox cəhətdən dünyamızı çəkiclə vuraraq məhv etdik. Çekiç ilk dəfə dayandı və dünyanın ona necə reaksiya verdiyini görmək şansımız oldu" deyib.

### Hava çirkliliyi hər il 7 milyon insanı öldürür

Alimlər, azot dioksidi kimi hava çirkliliyinin ən çox bilinən molekullarının inanılmaz dərəcədə sürətli azalması ilə heyrətlənirlər. Health Effects İnstitutunun prezidenti Dan Greenbaum qeyd edir ki, bu molekul hər il dünyada 7 milyon insanın ölümünə səbəb olur.

### 2005-ci ildən bəri hava çirklənməsində ən aşağı səviyyələr

NASA-nın azot dioksid ölçmələrinə görə, ABŞ-da havanın çirklənməsi, peyklərlə ölçməyə başlandığı 2005-ci ildən bu yana ən aşağı səviyyəyə çatıb. Başqa yerlərdə də vəziyyət eynidir. Son beş ilin ortalaması ilə müqayisədə havanın çirklənməsi Parisdə 46 faiz, Hindistanın Benqaluru şəhərində 38 faiz, Sidneydə 29 faiz, Los Ancelesdə 26 faiz, Rio de Janerio və Cənubi Afrikanın Durban bölgəsində 9 faiz eniş qeyd edilib.

NASA rəsmiləri bildirirlər ki, havanı çirkləndirməyən nəqliyyat vasitələrinə keçilməsilə nə baş verə biləcəyini aydın görmək mümkündür. Karbon qazı və karbonmonoksit nisbətləri də azalıb, lakin azot dioksidi qədər deyil. Çünki enerji istehsalı və heyvandarlıq davam edir.

### İlk dəfə Himalay dağlarının zirvəsini gördülər

Təmiz havadakı fərq Hindistan və Çində ən çox nəzərə çarpdı. Aprelin 3-də səhər Hindistanın şimalındakı Cələndər şəhərinin sakinləri on illərlə görünməyən bir mənzərəyə oyandılar və ilk dəfə yüzlərlə mil uzaqlıqdakı qarla örtülmüş Himalayı görə bildilər.

### Sağlamlığa müsbət təsir edəcək

Təmiz hava yalnız gözəl mənzərə demək deyil. Təmiz və güclü ağciyərlər daha az astma, daha az ölüm və daha sürətli sağalma deməkdir.

Sadəcə havanın çirklənməsi səbəbindən o qədər insan ölür ki, hətta siqaret səbəbindən ölənlərin sayını keçdiyi düşünülür.

### İqlim dəyişikliyinə təsir edirmi?

Breakthrough İnstitutunda iqlim mütəxəssisi Zeke Hausfather "İstiliyi saxlayan və istixana effekti yaradan qazlar atmosferdə ən az bir əsr ərzində qalacaq, buna görə pandemiya tədbirləri qlobal istiləşməyə əhəmiyyətli təsir göstərməyəcək" deyib.

*Aysel Məmmədova*

ARAŞDIRMA

## Yollarda yoxlama-buraxılma işləri nə vaxt yekunlaşacaq?



"Növbəti dövr ərzində göstəriş verildiyi təqdirdə və qərar qəbul olunduğu halda nə etmək lazımdırsa o istiqamətdə də xidmət davam etdiriləcək". Bu sözləri SİA-ya açıqlamasında Bakı şəhər Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Vaqif Əsədov may ayının 4-dən etibarən post-karantin dövrünə keçid edildiyi təqdirdə yollarda yoxlama-buraxılma işlərinin yekunlaşdırılması və yaxud postların ləğv edilməsi ilə bağlı məsələyə aydınlıq gətirərkən deyib.

O bildirib ki, pandemiya ilə əlaqədar yoxlama-buraxılma nəzarət məntəqələrinin müvafiq fəaliyyətini davam etdirməsi və ya fəaliyyətini başa vurması karantinlə bağlı alınacaq rəsmi qərarla bəlli olacaq: "Mən hesab edirəm ki, bu sualın cavabı karantinlə bağlı məlum qərarla aydın olacaq. Bildiyimiz kimi hazırda karantin müddəti Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən uzadılıb və may ayının 4-ə qədər polis gücləndirilmiş iş rejimi ilə xidmətini davam etdirəcək. Qeyd edildiyi kimi yoxlama-buraxılma işlərində də funksional vəzifədə nə nəzərdə tutulubsa o da həyata keçiriləcək".

Polis polkovnikinin sözlərinə görə, may ayının 4-nə qədər qanun çərçivəsində nə nəzərdə tutulubsa eynilə yerinə yetiriləcək və may ayının 4-dən sonra da qanunla nəzərdə tutulan istiqamətdə xidmət davam etdiriləcək:

"Karantin müddəti martın 13-dən etibarən elan olunub, martın 13-dən 29-na və daha sonra mayın 4-ə qədər uzadılıb. Postlar, inzibati tənbeh tədbirləri və s. bunların hamısı qanunla nəzərdə tutulmuş tələblərin yerinə yetirilməsinə aiddir. Polis qanun çərçivəsində xidmət göstərir. Əgər pandemiya ilə əlaqədar yoxlama-buraxılma məntəqələrinin, postların ləğv edilməsi ilə bağlı qərar qəbul edilərsə və karantin müddəti sonlandırılarsa polis də öz xidmətini başa vuracaq. Hər bir qurumun istənilən dövrdə öz funksional vəzifəsi var və biz də polis olaraq qanun çərçivəsində xidmət edirik".

## "Videokonfrans formatında görüş növbəti nəticəsiz danışıqlar idi"

"Azərbaycan və Ermənistan XİN başçıları arasında keçirilən videokonfrans formatında görüş növbəti nəticəsiz danışıqlar idi". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Asim Mollazadə deyib. O bildirib ki, əslində ATƏT-in həmsədrləri işğalçı tərəfə sanksiyaların tətbiqi ilə bağlı məsələni müzakirə etməlidirlər: " Amma çox təəssüf ki, onlar bunu deyil koronavirus məsələsini müzakirə edirlər. Buna nə ehtiyac var? Onlar bu addımları ilə şou yaradırlar".

A. Mollazadə qeyd edib ki, Ermənistan sülhə hazır deyil və Dağlıq Qarabağ münaqişəsinin həllinə dair heç bir addım atmaq istəmir: " Bu baxımdan danışıqlar artıq oyuna çevrilib. Nəticəsiz danışıqlar ancaq prosesin özünə xələl gətirir. Bu fakt beynəlxalq ictimaiyyətin də diqqətinə çatdırılmalıdır".

## "Nar" "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"nə dəstək olmaqda davam edir

"Nar" koronavirus (COVID-19) pandemiyasının ölkə ərazisində yayılmasının qarşısının alınması məqsədilə aparılan mübarizəyə dəstək məqsədilə zəruri tədbirlər həyata keçirməkdədir. Belə ki, mobil operatorun mütəxəssisləri qısa zaman ərzində "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi"nin mobil operatorla inteqrasiyasına və abunəçilərə fasiləsiz xidmət göstərilməsinə nail olublar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzi və Daxili İşlər Nazirliyinin birgə ərsəyə gətirdiyi sistem "Nar" tərəfindən qısa müddət ərzində test edilib və lazımi tənzimləmələr aparılıb. Nəticədə, mobil operatorun abunəçiləri vətəndaşların yaşayış yerlərini tərk etmələrinə dair icazələrin alınması məqsədilə istifadəyə verilmiş "8103" qısa nömrəsindən ödənişsiz və fasiləsiz yararlana bilirlər.

Eyni zamanda, abunəçilərin "8103" xidməti ilə bağlı yarana biləcək suallarını cavablandırmaq məqsədilə "Nar", sosial media səhifələrində bir çox faydalı məlumatlar paylaşır. Həmçinin, abunəçi bazasına maarifləndirici SMS məlumatlarının göndərilməsi də təmin olunub.

Koronavirus pandemiyası ilə əlaqədar abunəçilərin sorğularını fasiləsiz cavablandırılması məqsədilə "Nar" müştəri xidmətləri gücləndirilmiş iş rejiminə keçib. Eyni zamanda, mobil operator xüsusi karantin rejimində abunəçilərinin evdən çıxmadan bir çox xidmətlərdən yararlanmasına dəstək olub. Abunəçilər öz sorğularını evdən çıxmadan 777 Çağrı Mərkəzi ilə yanaşı, "Nar+" mobil tətbiqi vasitəsilə də ünvanlaya bilərlər. Bununla yanaşı, 02.04.2020 tarixindən etibarən abunəçilər üçün "Səyyar Nar" xidməti də təşkil edilib. Bu xidmət vasitəsilə "Nar" nümayəndəsi müştərinin ünvanına gəlir və nömrə ilə bağlı sorğunu yerində həll edir. Bundan başqa, mobil operator məsafədən nömrə satışını da həyata keçirir və müştərilərin narsim.az vebsaytı üzərindən seçdikləri nömrə birbaşa evlərinə çatdırılır.

Qeyd edək ki, "Nar" koronavirus pandemiyasının ölkədə yayılmasına qarşı aparılan tədbirlərə dəstək göstərməyi öz sosial məsuliyyəti hesab edir. Mobil operator xüsusi karantin rejimi zamanı həyata keçirilən bir sıra mühüm sosial layihələrdə aktiv iştirak etməkdədir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

***Ermənistanın mövcud hakimiyyətinin xarici siyasət sahəsində də uğursuzluqlara uğraması artıq dəfələrlə sübuta yetirilib. Ümumiyyətlə, Nikol Paşinyan hökumətinin əvvəlki hakimiyyətlərdən fərqlənmədiyi atıq göz önündədir. Daha dəqiq desək, Ermənistanın işğalçılıq siyasəti bu ölkənin nəinki daxili resurslarını, həm də xarici siyasət resurslarını da tükəndirib. Əbəs deyil ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində hətta onun müttəfiqi hesab edilən və ATƏT-in Minsk qrupunun həmsədrlərindən olan Rusiya tərəfindən çıxdaş olunur, zaman-zaman ağır zərbələrə məruz qalır. Düzdür, əvvəlki hakimiyyətlərin Rusiyameyilli olması sözügedən məsələdə işğalçı ölkənin "sudan quru çıxmasına" imkanlar verirdi, ancaq indiki halda faktlar tamamilə əksini göstərir. Xüsusilə də, Rusiyanın Ermənistanın mövqeyini yenidən nəzərdən keçirməsi reallığı artıq heç nəyin əvvəlki kimi olmayacağı siqnallarını verməkdədir.***

# Ermənistanın xarici siyasəti "dəhşətli bazar"dır

## *Baş nazirin və XİN rəhbərinin istefası tələb olunur*










Əbəs deyil ki, məhz Paşinyan tərəfindən devrilmiş Serj Sarkisyan iqtidarının təmsilçiləri bugünlərdə Rusiyanın xarici işlər idarəsinin rəhbəri Sergey Lavrovun mövzu ətrafındakı bəyanatını Ermənistan üçün fəlakət hesab edirlər. SİA aysor.am-a istinadən xəbər verir ki, keçmiş iqtidar təmsilçisi - S.Sarkisyanın sədri olduğu Respublika partiyasının sədr müavini Armen Aşotyan faeybuk səhifəsində yazdığı statusunda bu məsələyə toxunaraq, əvvələ Nikol Paşinyanın 25 yanvar 2020-ci ildə Qafanda səsləndirdiyi "Hazırkı məqamda danışıqlar masasında heç bir sənəd yoxdur", bəyanatını xatırladıb.

Daha sonra isə, Aşotyan Sergey Lavrovun 2020-ci il, 21 aprel tarixindəki "Ötən ilin aprelində həmsədrlərin iştirakı ilə Moskvada Rusiyanın, Ermənistanın və Azərbaycanın XİN rəhbərlərinin görüşündə layihələr qəbul edilib və ictimailəşdirilib. Bu layihələr hazırda aktiv şəkildə müzakirə olunurlar" bəyanatı xatırladıb və bu vasitə ilə Paşinyanın yalan danışdığını, xalqın "başına ip keçirib" oynatdığını bildirib.

Nəticədə Respublika partiyasının rəsmisi tələb irəli sürüb: "Tələb edirəm ki, Ermənistanın baş naziri Rusiya XİN rəhbərinin səsləndirdiyi, o cümlədən problemin mərhələli həlli variantı ilə bağlı verdiyi bəyanatına rəsmi açıqlama və izahat versin. SİTAT: "Bəsdir hər kəs axmaq yerinə qoyuldu. Bu məsələdə dəqiq olaraq "dəhşətli bazar" fikri yetişir".

Erməni politoloqu Karen Bekaryan da sözügedən məsələ ilə bağlı, yəni Sergey Lavrovun bəyanatı ilə əlaqədar feysbuk səhifəsində yazıb: "Ermənistanın strateji müttəfiqi, Minsk qrupunun həmsədr ölkəsinin xarici işlər naziri Sergey Lavrov danışıqlar masasında Qarabağ münaqişəsinin mərhələli həlli ilə bağlı sənədlərin olduğunu bildirib və vurğulayıb ki, həmin sənədlərin imzalanması BMT-nin qəbul etdiyi qətnamələrin həll olunması üçün mühüm addımdır".

Əgər nəzərə alarsaq ki, BMT-nin qəbul etdiyi dörd məlum qətnamənin hər birində Ermənistanın işğalçılıq siyasəti sübuta yetirilib və torpaqlarımızın işğala məruz qaldığı göstərilib, habelə həmin torpaqların qeyd-şərtsiz azad edilməsi tələb olunur, bu zaman erməni ictimaiyyətinin təlaşlanması daha çox aydın görünməyə başlayır. Bu təlaşın kökündə isə əsas günahkar olaraq məhz Nikol Paşinyanın diplomatik uğursuzluğu göstərilməkdədir. Əbəs deyil ki, artıq bu reallıq bütövlükdə Ermənistanın məğlubiyyətə uğramasını da əks etdirməkdədir. Erməni politoloqu yazır: "...Bu, Ermənistanla Rusiya ikitərəfli əlaqələrinin bütünlüklə pozulması deməkdir. Əgər bu bəyanat həqiqəti əks etdirirsə, biz Ermənistanın və "Artsaxın" (dırnaqlar bizimdir-R.R.) milli-dövlətçilik maraqlarının süqutunu yaşayırıq. Ardınca isə, öz ictimaiyyətinə deyilən yalanı da görürük".

Məhz bu baxımdan, Karen Bekaryan ölkəsinin xarici işlər nazirinin isefasını tələb edib. Onun sözlərinə görə, bütün hallarda o ya istefa verməli, ya da vəzifəsindən qovulmalıdır: "Əgər XİN rəhbəri getmirsə, demək bu məsələdə bilavasitə cavabdehliyi baş nazir daşıyır".

**Rövşən RƏSULOV**



# Əks-düşərgədən hansı yenilikləri gözləmək olar?

***Ölkədə siyasi partiyaların qeydiyyata alınması prosesi davam edir və onların sayı artıq 57-yə çatıb. Belə partiyalardan biri də, Sülhəddin Əkbərin rəhbərlik etdiyi Azad Demokratlar Partiyasıdır (AzDP).***

Lakin məsələ ondadır ki, ölkədə bu kimi çoxsaylı müxalifətyönlü partiyalar kifayət qədər olsa da, onların siyasi fəaliyyətlərində hər hansı bir aktivlik müşahidə olunmur. Daha dəqiq desək, belə partiyaların əksəriyyəti müxtəlif azömürlü blok və birliklərdə təmsil olunmaqla ictimai-siyasi proseslərə ümumiyyətlə, təsir etmək imkanına malik deyillər.

### Əbəs deyil ki, belə G qruplar müxalifət təşkilatlarından daha çox "beşinci kolon" olaraq tanınırlar

Digər tərəfdən, bu gün özlərini müxalifət düşərgəsinin "anası" hesab edən, yaxud özlərini zorla ictimai rəyə sırımağa çalışan, destruktiv, radikal xarakterli siyasi təşkilatlar da var ki, cəmiyyət belə partiyaların fəaliyyətinə dəstək göstərmir. Çünki ortaya hər hansı sağlam düşüncəli, sivil maraqlar qoyulmur, yalnız şəxsi maraqlar kontekstində idarəçilik amilləri nəzərə çarpır. O cümlədən, xalqın adından keyfiyyətsiz, uğursuz fikirlər irəli sürülür və nəticədə məlum olur ki, hətta bu fikirlər belə, özlərini "lider" adlandıran fərdlərin beyin məhsulları deyil. Daha doğrusu, bunlar xaricdən idarə edilən müəyyən anti-Azərbaycan xarakterli dairələrin sifarişləridir. Əbəs deyil ki, belə qruplar müxalifət təşkilatlarından daha çox beşinci kolon olaraq tanınırlar. Bu sıraya AXCP, Müsavat və s. bənzər partiyaları aid etmək mümkündür.

### "Milli Şura"da təmsil olunsa da...

Lakin daha bir maraqlı məqam budur ki, hazırda məhz həmin partiyaların şinellərindən çıxmış siyasi fərdlər bu gün tamamilə fərqli siyasi motivizasiyaları ilə fəaliyyət göstərirlər. Bu baxımdan, yenicə qeydiyyata alınan AzDP-ni göstərmək mümkündür. Belə ki, partiyanın sədri S.Əkbər AXC-Müsavat sıralarından çıxmış şəxsdir və bu gün radikalizm, destruktivlik fəaliyyətini tamamilə rədd edir, sivil siyasi mübarizə üsulunu fəaliyyət istiqaməti olaraq götürür. Halbuki, bir müddət əvvələ qədər o da AXCP-nin nəzarəti altında olan "Milli Şura"da da təmsil olunub.



### Partiya sədri: Dialoq mühiti önəmlidir

Bu arada, AzDP sədrinin partiyasının dövlət qeydiyyatına alınması ilə bağlı mətbuata

## AzDP sədri Sülhəddin Əkbər: "Müxalifətin proseslərə hazır olmadığını düşünürəm"

verdiyi müsahibəsindəki bir neçə fikri araşdırmaq və nəticələr çıxarmaq olar. Məsələn, o bildirib ki, dünyada və regionda gedən proseslər avtomatik olaraq Azərbaycanda da yeni siyasi şəraitin yaranmasına stimul verib. "Hakimiyyət də bunu indidən dəyərləndirməyə başlayıb", deyən müxalifətçi partiya sədri burada eyham vurub ki, dolğun, sivil siyasət reallığını əldə etmək üçün məhz dialoq mühiti önəmlidir.

### AzDP: "Hakimiyyət dünyada və regionda baş verənlər barədə kifayət qədər məlumatlıdır"

Başqa tərəfdən, S.Əkbər iqtidarın kifayət qədər bilgin, siyasi yetkin olduğunu qeyd edir və ümumiyyətlə, istər dünyada, istərsə də regionda baş verən bütün prosesləri nəzarətdə saxladığını bildirir: "...Bir məqamı da xüsusi qeyd etmək istəyirəm. Çoxları Azərbaycan hakimiyyətinin məlumatsız olduğunu, heç nəyi bilmədiyini düşünür. Mən əksini düşünürəm. Hakimiyyət dünyada və regionda baş verənlər barədə kifayət qədər məlumatlıdır və bu proseslərin Azərbaycana hansı təsirlərinin olacağını dəqiq bilir".

Göründüyü kimi, o müxalifət partiyasının sədri olaraq etiraf edir ki, Azərbaycan iqtidarı istənilən vəziyyətdən məlumatlı olması ilə yanaşı, həm də qabaqlayıcı tədbirləri həyata keçirmək gücündə, qüdrətindədir. Belə yanaşmanı isə, proseslərə doğru qiymət vermək kimi də qiymətləndirmək olar. Baxmayaraq ki, o müxalifət təmsilçisidir, reallıqdan çıxış edir və faktlara əsaslanır.

Partiya sədri: "Buna adekvat fəaliyyət görmürəm, adekvat münasibət də yoxdur"

Daha bir ilginc məqam budur ki, yuxarıda da qeyd edildiyi kimi, destruktivlik fəaliyyətləri ilə sifarişli siyasət həyata keçirməyə cəhd edən radikal qanadlar heç də dünyadakı və regiondakı proseslərə dolğun qiymət verə bilmirlər. Çünki onların məqsədlərinin nədən ibarət olması da məlumdur. Hətta ümummilli məsələlərdə belə, xalqın, hakimiyyətin yanında olmayan dağıdıcı kəsim ümumiyyətlə qarşılıqlı addım atmaq marağında deyillər. AzDP sədri məhz həmin məsələyə də münasibətində qeyd edib ki, şəxsi maraqlarını bir kənara qoymaqla müxalifət, cəmiyyətin aktiv siyasi kəsimi dünyada və regionda gedən prosesləri diqqətlə izləməlidir. Ancaq belə bir mövqe olmadığına görə, düşərgənin böyük qismi heç bir prosesə hazır ola bilmir: "Təəssüf ki, buna adekvat fəaliyyət görmürəm, adekvat münasibət də yoxdur. Bu baxımdan müxalifətin proseslərə hazır olmadığını düşünürəm".

Beləliklə, yalnız yenicə qeydiyyata alınmış AzDP deyil, qeydiyyata alınmaq üçün gözləyən digər müxalifət partiyaları da əslində bu prizmadan düşünməli, bir sıra məsələlərdə reallıqdan çıxış etməlidirlər. Radikallığın və qeyri-konstruktivliyin isə heç vaxt nə siyasi, nə də başqa cəhətdən hər hansı partiyaya üstünlük qazandıracağını düşünmək sadəcə sadəlövhlük olardı...

***Rövşən NURƏDDİNOĞLU***

# Haqq olduğuna məni qandıra bilmirsənsə...



***Az qala otuz ilin söhbətidi. 1922-ci ilin aprel ayı idi. O zaman Azərbaycanın müstəqilliyi və ərazilərimizin toxunulmazlığı uğrunda gedən ümumxalq hərəkatının önündə gedən Azərbaycan Xalq Cəbhəsinə maskalanıb (indiki koronovirusa qarşı taxılan maskalardan yox a...) soxulmuş bir qrup vəzifəpərəst ünsürlərin istəyinə zidd olaraq, Əbülfəz Elçibəyin prezidentliyə namizədliyinin irəli sürülməsini həm xalqa, həm xalqın milli azadlıq hərəkatına, həm də AXC sədri Ə.Elçibəyin özünə xəyanət kimi dəyərləndirir və bu namizədliyə qarşı təkbaşına açıq savaşırdım. Həm də bu savaşı sadəcə AXC daxilində deyil, o dövrün mətbu orqanlarında da aparmaqla, bu yanlış addımı ictimailəşdirirdim. Saysız-hesabsız tərəfdarlarım olmaqla, ondan da çox əleyhdarlarım var idi. Elə indiki kimi, o zaman da mənə dəstək olanların tam əksəriyyəti məqamı gələndə susmağa üstünlük verirdi və məqsədi də aydın idi: bəlkə mkan oldu, o da AXC hakimiyyətindən nəsə qoparmalı oldu.***

Ancaq mən mübarizəmi sona kimi davam etdirməyə qərarlı idim, davam da etdirdim. Nə yazıqlar ki, rəhmətlik Əbülfəz bəy istisna olmaqla, etiraf etməyə özlərində güc tapmasalar belə, tarix sübut etdi ki, AXC Ali Məclisinin Ə.Elçibəyin Prezidentliyə namizədliyinin irəli sürülməsinə səs verən 91 və bitərəf qalan Tahir Kərimli deyil, məhz mən haqlı imişəm. Xülasə, bunları ona görə yazdım ki, indi deyəcəklərim oxucularımda düzgün anlaşılsın. Həmin dönəmdə o zaman respublikada mövcud olan əksər mətbu orqanlar mənə piyar kompaniyasına başlamışdılar (Həmin mətbu yazıların hamısı bu gün də arxivimdə saxlanmaqdadır).

Saysız-hesabsız yazışmalar zamanı, nəhayət, "Millət" qəzetində, tanınmış jurnalist Hüseyn Əzizoğluna verdiyim müsahibəmdə belə bir cümlə işlətmişdim. Sitat: "Ya mənim yanlış olduğuma, özünün haqq olduğuna məni inandır, o zaman yanlışımı etiraf edib sizin haqq hesab etdiyiniz yola qayıdacağıma əmin olun. Yox bu mümkün deyilsə, o zaman məni qandığım haqq yolundan sapdırmağa çaba göstərməyin. Çünki mən qandığım haqq yolindan dönməyi özümə və mənəviyyatıma xəyanət hesab edərəm!". Sitatın sonu!

Üstündən otuz ilə yaxın bir müddət keçəndən sonra, yenə həmin situasiya ilə üz-üzə qalmışam. "Səs"in ötən saylarından birində gedən "Göydə allah, yerdə padşah!" yazımla da bağlı, gözlədiyim kimi, birmənalı olmayan reaksiyalarla qarşılaşdım. Yenə şükür, əksəriyyət mənim yazdıqlarımla tamamilə,yaxud əsasən razılaşdığını desə də, məni topa tutmaq istyənlər də oldu. Yox, kimsə narahat olmasın. Onlar ermənifason top atəşi atırdılar, mən də türkfason müdafiə sistemlərimin köməyilə o atəşləri elə havadaca zərərsizləşdirirdim. Kor tutduğunu buraxmadığı kimi, yazımdakı digər fəlsəfəni bir kənara qoyub yapışıblar ondan ki,mən ölkə başçılarını peyğəmbərlə(???) müqayisə etmişəm. O qədər iri həcmi də olmayan yazıda bütün digər məqamları bir kənara qoyub "peyğnbər" sözündən belə süni şəkildə sui-istifadə edənlərə yazını təkrar oxumağı və hər yazıda olduğu kimi bu yazıda da məqsədi, məramı anlamağı məsləhət gördüm.

Amma kimə deyirsən? Mən kimisə müqəddəsləşdirmək fikrində deyiləm. Kiməsə sitayiş də edən birisi deyiləm. Elə müqəddəs kitabımız olan Qurani-Kərimdən çıxış edərək, yalnız yaradanı müqəddəs qüdrət kimi tanıyır və bu əlçatmaz qüvvəyə sitayiş edirəm. Eləcə də, yenə yaradanın öz rəsulunun dediyi kimi, peyğəmbərlərə də sitayiş etmirəm.İstər on üç xüsusi seçilmiş və yaradanla hər hansı formada əlaqədə olan tanrı elçiləri olsun, istər də 124 min rəqəmi ilə qeyd olunan tanrının göndərilmişləri olsun. Mən ərəbcə "peyğəm" sözünün lüğəti mənasını qeyd etmişəm və onun lüğəti mənasının "göndəriş" olduğunu ərəb dilinə az-çox bələd olan hər kəs yaxşı bilir. 124 min peyğəmbərin - göndərilmişlərin də bu qədər çox sayda olmasının da dünya düzənində, cəmiyyətlərin idarə olunmasında fədakarcasına çalışanlarla əlaqədar olduğunu qeyd eləmişəm. Və hesab edirəm ki, subyektiv düşüncəmin məhsulu olsa da, haqlıyam. Bütün dəyərləri,o cümlədən dini dəyərləri fanatikcəsinə qəbul etməyin qəti əleyhinəyəm.

Məhəmməd (S.Ə.) buyururdu ki, islamı dərk etmədən qəbul etmək, onu qəbul etməməkdən daha böyük günahdı. Hədislərdən oxuyuruq, allahın rəsulu buyurur ki, islamın qəbulu üç mərhələdən keçir:idrak, iqrar və əməl! Yəni dərk etməli, dərk etdiyini dilə gətirməli, nəhayət əməlinlə sadiqliyini sübut etməli! Bu gün bəzi din xadimlərinə sual verəndə ki, əvvəl müsəlmansan, yoxsa türk, cavab verirlər ki, əvvəl müsəlmanam! Bu anormallıq deyilmi. 1400 il tarixi olan dini, azı yeddi-səkkiz min il tarixi olan milli varığından üstün tutmaq,nə dərəcədə mükəmməllikdir? Odur ki, mənim düşüncəmə görə, "peyğəmbər" kəlməsinin ərəb dilində adi söz olduğunu anlamaqla, bu kəlməni kiməsə şamil etməyin günah olduğunu iddia edənlər, bir daha düşünməlidirlər. Və, bəli, hesab edirəm ki, xalqını ən təhlükəli məqamdan xilas edib, onu ardınca aparıb dünyada yerini möhkəmləndirmək kimi missiyanı uğurla başa vura bilən kəs, yaradanın göndərdiklərindəndir - yəni peyğəmbərdir! Sadəcə, xüsusi seçilmiş, yaradanla ünsiyyətdə olanlardan deyil, 124 min kimi boynuna missiya qoyulan və bu missiyanı uğurla sona kimi aparanlardandır.

Bu, mənim qandığımdır. Kim bunun əksini mənə sübut edə bilirsə, buyursun, edə bilmirsə, o zaman bu gerçəyi qəbul edib, fanatik düşüncə girdabından özünü xilas etsin. Fanatizm hər zaman zərərlidir, o cümlədən müqəddəslərimizə münasibətdə!

***Təhmasib Novruzov***

# "Hər formada yaramazlığa və təxribata əl atırlar"



***""Milli Şura", AXCP, Müsavat kimi partiyaların koronavirusun tuğyan etdiyi bir dövrdə Azərbaycanın milli və dövlətçilik maraqlarına xəyanət yolu tutmaları onların Azərbaycanın maraqlarından kənar bir yol seçdiklərinin əyani sübutudur". Bunu SİA-ya açıqlamasında Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev deyib.***

E.Musayev bildirib ki, xalqdan ayrı düşən müxalif ünsürlərin Azərbaycana heç bir aidiyyatı yoxdur: "Onlar hər mərhələdə olduğu kimi, məlum dövrdə baş verən hadisələrə, koronavirusla mübarizə prosesinə də yalnız öz fərdi maraqları kontekstindən baxırlar. Tək arzuları da budur ki, vəziyyət nəzarətdən çıxsın, ölüm sayı çox olsun, əhalinin iqtisadi vəziyyəti pisləşsin və bu durumdan siyasi divident fonunda özləri üçün nəsə əldə eləsinlər, maksimum bəhrələnsinlər. Amma yenə alınmır. Yenə məğlubdurlar. Çünki dövlət yerindədir, bütün məsələlər nəzarətdədir, problem yoxdur və beləcə radikal müxalifətin, "5-ci kolon"un arzusu yenə gözlərində qalıb. "Milli Şura"nın və Əli Kərimlinin son dövrlər artan hədyanları, nifrinləri, daha da genişlənən anti-milli fəaliyyəti də bax həmin səbəblə bağlıdır. Rahatlaşmırlar heç cür. Daha doğrusu rahatlaşa bilmirlər. Hər formada yaramazlığa, təxribata əl atırlar. Sonra da deyirlər, siyasətçiyik, "vətən cəfakeşiyik". Hərçənd özləri də yaxşı bilirlər ki, onların bu millətə və dövlətə vurduğu zərbəni tarix boyu kimsə vurmayıb".

Millət vəkili onu da bildirib ki, Ə.Kərimli ətrafında saxladığı qolçomaqlarla internet üzərindən hücumlar edir, ölkədəki sabit və idarə olunan vəziyyətə kölgə salmağa çalışır, özünün quruluşçu rejissorluğu ilə yeni tamaşa səhnələri qurur, ictimai rəyi üzərinə çəkmək üçün dərindən qabıqdan çıxır, vurnuxur: "Fəqət, çıfayda, effekt yoxdur. Əksinə, maraq daha da azalıb. Bəyin "layk"ları tükənib. Diqqət sıfırdır. Bata bildikcə batır bu adam".

E.Musayev vurğulayıb ki, dövlət ayaq üstdədir, hökumət tərəfindən atılan bütün addımlar yerindədir və düzgündür: "Artıq xəstəliyə yoluxanlarla sağalanların arasındakı fərq ciddi bir şəkildə ikincinin xeyrinə doğru dəyişməyə başlayıb. Ümumbəşəri pandemiya üzərində qələbə qazanacağımız gün çox yaxındadır. Bu isə o deməkdir ki, "Milli Şura" ətrafında cəmlənən radikalların köməyinə koronavirus da çatmadı. Mənfur ünsürlər yenə öz xislətlərinin badına getdilər. Qazdıqları quyuya düşdülər. Arzuları bətndəcə dəfn olundu. "Milli Şura", Ə.Kərimli və onların təəssübkeşləri Azərbaycan xalqının açıq və birmənalı düşmənləridir! Koronavirus dövründə müşayət edilən hadisələr də bir daha sübut etdi ki, bələlərinin əsl layiq olduğu yer siyasət məkanı deyil, tarixin zibilliyidir! O yer ki, illərdir məskunlaşıblar, gömülüb qalıblar. O yer ki, ömürlük ünvanları olacaq".

***Gülyana***

# Bakcell vətəndaşların sorğularını cavablandırmaq üçün "Asan Xidmət"lə əməkdaşlığı davam etdirir

Dünyada koronavirusun yayılması ilə əlaqədar olaraq Bakcell şirkəti ölkəmizdə həyata keçirilən qenişmiqyaslı qabaqlayıcı tədbirlərə qoşulub. Abunəçilərinin və əməkdaşlarının təhlükəsizliyini təmin etmək və bütün mümkün risklərin qarşısını almaq məqsədilə şirkət müvafiq dövlət qurumları tərəfindən bu istiqamətdə atılan addımlara xüsusi dəstək göstərir.

Bakcell, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Daxili İşlər Nazirliyi tərəfindən yaradılan "Xüsusi Karantin Rejiminin Tətbiqi Zamanı İcazələrin Alınması və Monitorinqi Sistemi" vasitəsilə vətəndaş sorğularının tez bir zamanda cavablandırılması üçün pulsuz SMS icazəni təmin edib. Bu sistemin fəaliyyətə başlaması üçün texniki inteqrasiya tədbirləri qısa müddət ərzində həyata keçirilib. Xidmət işə başlayandan sonra isə Şirkət "Asan Xidmət"lə birlikdə hər gün sistemin monitorinqini aparır.

Bununla yanaşı, 8103 qısa nömrəsinə mesaj göndərilməsi ilə bağlı abunəçilərin suallarının cavablandırılması üçün Şirkətin 555 Əlaqə Mərkəzi və digər müvafiq strukturları gücləndirilmiş iş rejimində çalışır. Müxtəlif mobil cihazlar vasitəsilə 8103 nömrəsinə mesaj göndərə bilməyən abunəçilərə kömək məqsədilə xüsusi video material hazırlanaraq "Bakcell"in sosial media səhifələrində yerləşdirilib (videoya keçid etmək üçün bu linkə daxil olun - https://www.facebook.com/Bakcell/videos/225149435210696/ )

Xatırladaq ki, Bakcell ölkədə koronavirusa qarşı mübarizə üzrə həyata keçirilən genişmiqyaslı tədbirləri dəstəkləmək üçün bir sıra mühüm layihələr həyata keçirib. Belə ki, şirkət Koronovirusla Mübarizəyə Dəstək Fonduna 1.5 milyon manat ianə etməklə yanaşı, Azərbaycana süni tənəffüs aparatları, bədən hərarətini məsafədən ölçən xüsusi keçidburaxılış avadanlıqları, eləcə də koronovirusa yoluxmanı yerindəcə müəyyən etməyə imkan verən 3000 ədəd ekspress-testin gətirilməsi üçün iri həcmdə vəsait ayırıb. Bundan əlavə, Bakcell karantin mərkəzlərində çalışan tibbi heyətə təşəkkürünü ifadə etmək üçün açıqca vasitəsilə mesajlar göndərib və bütün karantin mərkəzlərinin həkimlərinə və müxtəlif karantin mərkəzlərində karantində saxlanılan vətəndaşlarımıza isə ödəmə kartları hədiyyə edib. Bakcell abunəçiləri öz telefonlarının ekranlarında "evdə qal" çağırışını görürlər. 1542 qaynar xətt nömrəsinə zənglər də bütün Bakcell abunəçiləri üçün tamamilə pulsuzdur.

Həmçinin, Bakcell ölkənin bütün regionlarında onlayn satış və çatdırılma xidmətini təqdim edib, xüsusilə vacib olmadıqda, Müştəri Xidməti Mərkəzlərinə getmək əvəzinə "Mənim Bakcellim" tətbiqetməsindən istifadəni və ya 555 Əlaqə Mərkəzinə zəng etməyi tövsiyə edib. Bakcell şirkəti həssas əhali qruplarına dəstək göstərmək üçün digər Korporativ Sosial Məsuliyyət təşəbbüsləri də həyata keçirir.



## *Üzüdönüklərdən və yolunu azanlardan adam olmaz*

**RƏFİQƏ**

Doğrusu, son günlər özünü "xəlifət" adlandıran satqın və quldurların sosial şəbəkələrdə heç bir dövlət rəhbərinin etmədiklərini ölkəmizin Prezidentinin etdikləri bu nailiyyətlərə şər-böhtan yağdırdıqlarını görəndə ağızdolusu lənətləyirəm. Ona görə ki, arxivin zibilliklərində eşələnlər özünü "siasətçi", "lider" adlandırır. Ancaq anlamırlar ki, bir xalqın xoşbəxt və firavan yaşaması, eyni zamanda onun liderinin apardığı siyasətin tərkib hissəsi ilə ölçülə bilər. Əslində bu gerçəklik həm də aksiomadır. Yəni lider xalqının maraqlarının təmin olunmasında xarizmatik keyfiyyətlərini ortaya qoymaqla həm də iradəsini nümayiş etdirir - millətinə, dövlətinə xidmət iradəsini...

Bu yerdə sosial şəbəkədə ötən həftə yazıçı Yunus Oğuzun bir statusun oxudum. Statusda deyilirdi: "Müstəqil Dövlət hər sözə şəbədə qoşan, hər addımda "mənəm-mənəm" deyən, birisinin sözünü o birisi qəbul etməyən, davakarlığı ilə öyünən, özündənrazı, qarmaqarışıqlığa və başıpozuqluğa meyl edən bir toplumu Nizamlı, İntizamlı, Məsuliyyətli bir xalqa çevirdi. Buna da səbəb dövlətin koronavirusla mübarizəyə başlayan gündən apardığım müşahidələr nəticəsində gəldiyim qənaət idi. Təbiidir ki, söhbət Dövlətdən və onun başında duranlardan gedir". Bəli, Dövlət və onun başında duran LİDERDƏN gedir. Çünki bu LİDER koronavirus hələ Çində epidemiya halında olanda, yəni pandemiyaya çevrilməyəndə HƏR BİR VƏTƏNDAŞIN PREZİDENTİ İlham Əliyev artıq bu təhlükəni gördü və buna artıq fevral ayından hazırlıq apardı. Və problkm mərhələ-mərhələ vətəndaşları bu virusla mübarizəyə hazırlamaq üçün, yazıçı Yunus Oğuzu dediyi kimi "yumşaq təzyiq siyasət" apardı və bunu da xalq alqışladı. Nəticədə Beynəlxalq Səhiyyə Təşkilatının rəyinə görə bu epidemiyaya tutulan və itkilərinin az olmasına görə birinci yerdə olduğu bildirilib. Bax, budur LİDER və XALQIN PREZİDENTİ olmaq. Bu DÖVLƏT-PREZİDENT- XALQ faktoru birliyinin bariz mücəssəməsi. Çünki bütün çətin məqamlarda Prezident İlham Əliyev həmişə xalqının, hər bir vətəndaşının yanında olub, bütün mümkün önləyici tədbirlərin dərhal reallaşdırılması üçün göstərişlərini verib. Ən əsas isə, karantin rejiminin elan olunmasından başlayaraq vətəndaşların sağlamlıqlarının mühafizəsi yönündə atılan addımlar, həmçinin sosial təminat və ərzaq təhlükəsizliyinin qorunub-saxlanılması, bolluq təminatı, qiymətlərin artırılmaması, karantin rejimində qalan vətəndaşların əmək haqlarının ödənilməsi, sosial ehtiyacları olan insanlara birdəfəlik ödənişlərin verilməsi, təqaüdlərin ödənişi, sosial qayğıya ehtiyacı olan yaşlıların diqqətdə saxlanılması, xarici ölkələrdə qalan vətəndaşlarımızın ölkəyə geri gətirilməsi və s. kimi faktlar LİDER-XALQ birliyinin nəticəsidir.

Lakin bəzi özündən müştəbehlər, qaragüruhçu siyasiləşmiş qruplar özlərini "lider" adlandıranda yenə də LƏNƏTLƏYİRSƏN belələrini. Doğrudur, belələrinin danışıqları xalqımıza heç ldə maraqlı deyil. Çünki onlar özləri başdan-ayağa kimi çirkaba bulaşmış viruslardır, danışıqları da iyrəncdir. Və bu siyasi quldur və Vətən xainlərindən, üzüdönüklərdən və yolunu azanlardan daha adam olmaz. Bu siyasət amili necə olan şeydirsə, ona qoşulan bəzi adamlar az müddət sonra əvvəlki həyat tərzindən fərqli yaşam həyatına malik olurlar. Hətta belələrinin danışıqları, hərəkətləri, verdiyi açıqlamaları da onları tanıyan insanlarda çox təəccüblü fikirlər yaradır. Radikal müxalifət təmsilçilərinin simalarına, onların davranışlarına diqqət yetirilsə, qeyd etdiyim fikirlərin əsaslı olduğunu görmək olar. Vaxtilə Eldar Namazov, Rafiq Əliyev, Eldəniz Quliyev, Gültəkin Hacıbəyli və digərləri insanlarda normal məxluq təsəvvürü yaradırdı. Yəni onlar düz yolda oolduqları zaman tamamilə fərqli idilər və danışıqları da anlaşılan idi. Ancaq elə ki, radikal siyasətə qoşulub təsir altına düşəndən sonra, başladılar hətərən-pətərən hərəkətlər etməyə. Xarici qüvvələr, ayrı-ayrı fondlar, qərb təşkilatları bunları necə qızışdırdısa fönüb oldular radikal müxalifətin şirpələnglər. Hansı ki, düz yolda olduqları zaman elə həmin bu əyri yollu müxalifət bunların az qala hər yerinə söyürdülər.

Götürək daha birini - Rüstəm İbrahimbəyovu. Məsələn, Eldar Namazov kinorejissoru özünə tay etmək üçün "Milli Şura" adlanan qurumun yaradılması ilə bağlı işbirliyi təşkil etdi. Daha doğrusu, Rusiyanın müəyyən maraqlı dairələrinin maddi-mənəvi dəstəyi ilə Namazovla İbrahimbəyov "Milli Şura" ideyasını reallaşdıra bildilər. Amma onların bu qurumda fəaliyyətləri çox qısa oldu, çünki qeyri-ciddi danışıqları, səhv siyasətləri ilə öz həyatlarını qaranlıq məcraya yönəltdilər. Az sonra qurumun yaradılması prosesində iştirak edən altı nəfər təşkilatçıdan dördü, o cümlədən, Eldar Namazov və Rüstəm İbrahimbəyov "Milli Şura"dan istefa verdiklərini bəyan etdilər. Bayqq da qeyd etdiyimiz kimi, siyasətə qoşulmaqla yollarını azanlar sırasında vaxtilə vəzifədə olub, lakin bəd əməllərinə görə oradan uzaqlaşdırılan şəxslər də mövcuddur. Məsələn, götürək keçmiş səhiyyə naziri Əli İnsanovu. Onun son vaxtlar səsləndirdiyi fikirlər, verdiyi bəyanatlardır. Bildirir ki, tərəfdarları mütləq və mütləq müxalifətə qoşulmalıdırlar və s. Onun hansı müxalifətə qoşulmaq işarəsi verdiyi məlum olmadığı kimi, hansı tərəfdarlarından danışdığı da şübhəli və gülməli görünür. Ən azı ona görə ki, İnsanovun tərəfdarları ümumiyyətlə, mövcud deyil. Vəzifədə olduğu zaman qohum-əqrəbasından ibarət ona dəstək verənlər olubsa da, onlar artıq ondan üz döndəriblər. Çünki cəmiyyətin bu adama olan mənfi münasibətinin onlardan da yan keçməyəcəyini başa düşdüklərindən, ictimai rəyin mövqeyindən çıxış etdiklərini bəyan etmək məcburiyyətində qalıblar.

Beləliklə, dediyim budur ki, bu adamlar əslində, nə edəcəklərini belə bilmirlər. Çünki yollarını azıblar. Əgər düz yollarında qalıb, əyri yola getməsəydilər, çox yəqin ki, cəmiyyətə yararlı işlərlə məşğul olardılar. Amma nə cəmiyyət, nə də ictimai rəy belələrini qəbul etmirlər. Çünki hər kəsə çox gözəl bəllidir ki, üzüdönüklərdən, yollarını azanlardan fərli adam olmaz...Yaxşı olar ki, bu viruslar özləri üçün narahat olmağa başlasınlar...

***İnsanın mənəviyyatı təkcə mühitin təsiri ilə formalaşmır. Hər bir şəxsin maddi-genetik təmələ malik olması, bir növ kodlaşdırılmış sistem olması onun gələcəkdə özünü necə aparması, nəyə daha çox meyilli olması üçün zəmindir. Mənəviyyat anlayışı geniş mənada maddiyyalm qarşılığı olmaqla maddi olmayan hər şeyi əhatə etsə də, dar mənada mənəviyyat "əxlaq" və "tərbiyə" anlayışları ilə eyni tərtiblidir. Digər tərəfdən, mənəviyyat fərdin mənəvi dünyasını ehtiva etməkdən başqa bütövlükdə ictimai həyata aid edilir. "Cəmiyy ətin mənəvi həyatı", "mənəvi mədəniyyət" dedik də söhbət fərdi miqyasdan kənara çıxaraq bir çox sosial institutlara və hətta bütövlük də bəşəriyyətə şamil edilir. Yəni ictimai mühit özü də əxlaqi-mənəvi meyarlarla ölçülür.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Müasir dövrdə bəşəriyyətin əldə etdiyi ictimai təcrübə və yüksəldiyi intellektual səviyyədən elm, fəlsəfə, din, əxlaq və digər mənəvi dəyərlər sisteminə yenidən baxılmasına, on ların insan həyatında rolunun yenidən dəyərlən dirilm əsinə böyük ehtiyac yaranmışdır.

İndi daha təkcə nəsihətlə, tərbiyə verməklə, hətta maarifləndirməklə insanın mənəvi kamilliyinə nail olmaq qeyri-mümkündür. Fərdin daxili mənəvi potensialının açılması da təkcə təlim-tərbiyə sayəsində həyata keçirilə bilmir.

Əvvəllər hər bir fərd cəmiyyətdən daha çox təbiətlə üz-üzə idi və mədəni-mənəvi mühitin sıxlıq dərəcəsinin az olması ona öz aurasını yaratmaq imkanı verirdi. İndi bu sıxlıq yüksək həddə çatmışdır. Cəmiyyətin yüksək dərəcədə təşkilatlanmış olduğu bir şəraitdə hər bir insanın fərdi həyatı özündən daha çox, kənar amillərdən asılı olur. İnsan hələ dünyaya gəlməmiş, onun yaşamalı olduğu təbii, sosial-iqtisadi və mədəni-mənəvi mühit formalaşmış olur

dir. Lakin nur mənbəyi kimi baxılan bu mərkəzin insanın özü üçün aydın və işıqlı olduğunu iddia edə bilmərik. Ən qaranlıq və məchul nöqtə bəlkə də elə mərkəzin özüdür. Mərkəzin işıqlanması, fəzilətin aydınlaşması heç də hamıya yox, ancaq seçilmişlərə məxsus bir vergidir. İnsanı nurani edən də əslində fəzilət nurunun təzahürüdür.

İnsanlar məqsədyönlü surətdə "pis" olmurlar. Onlar sadəcə olaraq hər bir konkret situasiyada "yaxşı"nın, xeyirin, "düz yol"un nədən ibarət olduğunu ayırd etməkdə çətinlik çəkirlər.



Əlbəttə, 2düz yol"u görərəkdən əyri yol seçənlər də

sələr heç də həmişə başqalarına xeyir gətirən hadisələrlə uzlaşmır.

Ən optimal hal bu uzlaşma məqamının tapılmasıdır. "Başqasına ziyan vurma!" devizi, "özünə qıyma!" devizi ilə tamamlanmalıdır. Ümumiyyətlə, başqaları haqqında düşünməyən, öz mənəvi durumunu ancaq etiqadla məhdudlaşdıran insanlar (askeılər), başqa sözlə, öz həyatını digər insanlara münasibətdə deyil, ancaq Allaha münasibətdə qurmağa çalışan, ancaq öz daxili mənəvi rahatlığını təmin etmək istəyən insanlarla yanaşı, özünü, öz taleyini, təbii- genetik missiyasını unuda-

# Mənəviyyat, intellekt və ümumbəşəri mənəvi haqlar

İnsan mənəviyyatının kamilləşdirilməsi bir məqsəd kimi qarşıya qoyulursa, əvvəlcə "kamil mənəviyyat" etalonunun özü düzgün müəyyənləşdirilməlidir. Fiziki cəhətdən hamı bir cür sağlamdır, xəstəliklər isə fərqlidir. Amma mənəvi baxımdan sağlam vəziyyətlər özü də fərqlidir. Əksinə, ola bilsin ki, kənaraçıxmaların təsnifatı daha rahatdır. "Yol"dan çıxaran amilləri müəyyənləşdirmək, qruplaşdırmaq bir o qədər çətin olmadığı halda, "yol"un özünün məhz nədən ibarət olması çox vaxt qaranlıq qalır. Lakin məhz "düz yol"un, mənəvi etalonun önə çəkilməsi və guya tam məlum bir şey kimi dəyərləndirilməsi Şərq təfəkkürü üçün çox səciyyəvidir. Xeyirin, fəzilətin, ədalətin, hikmətin nə olduğu guya bəlli imiş kimi bütün söhbətlər buna nail olmaq və ya bundan yayınmaları qınamaq üzərində qurulur. Nəsirəddin Tusi də "Əxlaqi-Nasiri" əsərində "düz yol"u, fəziləti, xeyiri mərkəzə çəkir və bunlardan fərqli fəaliyyəti mərkəzdən uzaqlaşma kimi dəyərləndirir. Bu, özlüyündə dəyərli bir model-var; onların günahı ikiqatdır. Lakin böyük əksəriyyət bu yolu görə bilməyənlər, fəzilətin ünvanını düzgün tapa bilməyənlərdir

Mənəvi keyfiyyətlərə, işə, əmələ "pis" və "yaxşı" deyə aksioloji yanaşmadan fərqli olaraq ölçülü, rasional münasibət bəslənməsi islam məfkurəsinin ən üstün cəhətlərindən biridir. Qurani-Kərim insanları kasıblara yardım etməyə, səxavətli olmağa çağırır. Amma digər tərəfdən, artıq xərc, israfda haram hesab olunur. Müxtəsər mülahizə etməklə məlum olar ki, xəsisilik pis xasiyyətlərdən biri olduğu kimi, israfçılıq da ona bənzərbir şey kimidir. Həlimlik xasiyyətlərin ən yaxşısı hesab edilir, ancaq yeri gəldikdə qəzəbsiz də iş keçmir. Yaxşılıq etmək yaxşı şeydir, lakin yamanlara yaxşılıq etmək, yaxşıların haqqında pislik etmək kimidir.

Kamil mənəviyyat modelinin əsasında başqalarına münasibət baxımından xeyirxahlıq, özünə münasibət baxımından xoşbəxtlik dayanır.

Lakin insanın özünə sevinc gətirən, onu xoşbəxt edən hadi-raq, həyatını ancaq başqalarına fayda verməyə həsr edən, yaxud kimlərə isə etibarla xidmət göstərən insanlar da vardır.

İnsanın bir fərd olaraq mənəvi-intellektual inkişafı ilə ictimai tərəqqi arasında ciddi qarşılıqlı əlaqə məqamları vardır. Belə ki, ayrı-ayrı insanların ümumi inkişaf səviyyəsi aşağı olduqda cəmiyyətin təkmilləşdirilməsi çox çətin olur. Digər tərəfdən, ictimai təşkilatlanmanın səviyyəsi, dövlət idarəçiliyinin oplimallığı da öz növbəsində fərdlərin öz şəxsi həyatlarını düzgün qurmaları və mənəvi-intellektual inkişaflarının təmin olunması üçün mühüm şərtdir. İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xysusiyyətlər yaranır. Dünya xalqları arasında milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşmış və göründüyü kimi, o vaxtdan bəri çox az dəyişmişdir. Azərbaycanlıların çox vaxt türk-islam dəyərləri adlandırılan əxlaq qaydaları toplusunun özəyi orta əsrlərdəki türk hərbi-feodal şərəf kodeksinin təsiri altında formalaşmışdı.

Təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev bütün dəyərlər içərisində ən böyük üstünlüyü mənəvi amilə vermişdir: "Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır". Dahi şəxsiyyət deyirdi: "Bizim hamımızın bir vətəni var - bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək,mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".

Azərbaycanda müasir inkişaf prosesi göstərir ki. iqtisadi islahatlarla yanaşı, cəmiyyətin mədəni-mənəvi həyatının strukturunda da adekvat dəyişikliklər aparılmasına böyük ehtiyac vardır. Bu şərt ilk növbədə, ayrı-ayrılıqda elm-təhsil və incəsənət sahələrinə aid olsa da, ictimai həyatın bütün sahələrində əsas amillərdən biri kimi çıxış edir.

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

23 aprel

## “Beşiktaş” Loris Kariusa qapını göstərdi



***“Beşiktaş” qapıçısı Loris Kariusla yolları ayırıb. Bu barədə nüfuzlu “Hurriyet” nəşri məlumat yayıb. Xəbərdə deyilir ki, alman qolkiperlə müqavilə qarşılıqlı razılaşma əsasında ləğv edilib. Bir neçə gün əvvəl İstanbul klubundan 1.6 milyon avroluq alacağı ilə bağlı FİFA-ya da şikayət edən 26 yaşlı qapıçı ilə bu gün görüş olub.***

Klub rəhbərliyi görüş nəticəsində onunla yollar ayrılıb. Kariusun bir neçə günə Türkiyəni tərk edəcəyi bildirilib. Qeyd edək ki, Karius müqavilə ilə “Liverpul”a məxsusdur.

## Ulduz futbolçu: “Heç kim məni Azərbaycana getmək fikrindən daşındırmadı”



“Dostlarımla Bakı haqqında danışanda bu şəhərin harada olduğunu da bilmədilər. Ancaq heç kim məni Azərbaycan çempionatına getmək fikrindən daşındırmadı”. Qol.az xəbər verir ki, bu sözləri “Səbail”in futbolçusu Maykl Essyen Rusiyanın “Match TV” kanalına açıqlamasında deyib. Qanalı yarımmüdafiəçi Azərbaycanla bağlı təəssüratlarını bölüşüb. O, ölkəmiz barədə müsbət fikirlər səsləndirib: “Qohumlarım buranı yanımda olduqları zaman çox xoşlayırlar. Bakıda ümumiyyətlə, tıxac yoxdur.

Bir neçə il İndoneziyada oynadım, orada nəqliyyatın vəziyyəti 20 qat pisdir. Azərbaycan mətbəxi çox dadlıdır, amma yüksək kalorilidir”. Qeyd edək ki, 38 yaşlı ulduz futbolçu 2019-cu ilin martından “Səbail”də çıxış edir.

## İmmuniteti möhkəmləndirmək üçün 6 qayda!



İnsanın immun sistemi mükəmməl bir sistemdir. Güclü immunitet insanı istənilən xəstəlikdən qoruya bilər. Hər gün insanın orqanizminə hava, su, qida ilə milyonlarla müxtəlif mikroblar, viruslar, göbələklər daxil olur. İmmun sistemi isə onları zərərsizləşdirir və nəticədə insan xəstələnmir. Hər gün bizim orqanizmdə xərçəng hüceyrələri yaranır. İmmun sistemi isə onları zərərsizləşdirir.

Həkimlərin fikirinə görə, immunitetin səviyyəsi insanın irsiyyətindən (50%) və həyat tərzindən (50%) asılıdır. İrsiyyəti dəyişmək mümkün olmasa da, həyat tərzini dəyişmək mümkündür. İmmun sisteminin normal fəaliyyəti üçün bu sadə qaydalara əməl edin:

**1.** Düzgün qidalanın. Meyvə-tərəvəz, göyərti, süd məhsulları, qoz-fındıq, balıq, paxlalılar (noxud, lobya, mərci), bitki yağları immun sisteminin normal fəaliyyəti üçün ən vacib məhsullar sayılır. Əksinə çoxlu miqdarda şirniyyatların, şəkərin qəbulu immun sisteminə çox mənfi təsir edir.

### Uzunmüddətli pəhrizlər immun sistemini zəiflədir.

**2.** Kifayət qədər yatın və dincəlin. Xroniki yorğunluq, yuxusuzluq insanın immun sisteminə mənfi təsir edir.

**3.** Stresdən uzaq olun. Xroniki stress bir çox xəstəliklər və pozulmaların (o cümlədən xərçəng xəstəliklərinin) risk faktoru sayılır. Bu səbəbdən mümkün qədər stress vəziyyətlərindən qaçın.

**4.** Hər gün ən azı 30 dəqiqə açıq havada gəzin.

**5.** Orqanizmdə olan xroniki infeksiya ocaqları (kariesli dişlər, xroniki tonzillit, xroniki haymorit və s.) immun sistemini zəiflədir. Bu səbəbdən belə infeksiya ocaqlarını mütləq və vaxtında müalicə etmək lazımdır.

**6.** Havaya uyğun geyinin, özünüzü soyuqdan qoruyun. Soyuqlama immun sisteminin kəskin zəifləməsinə səbəb olur.

## Fəhlə 8-ci mərtəbədən yıxılaraq ölüb



Sumqayıtda ölümlə nəticələnən bədbəxt hadisə baş verib. Hadisə şəhərin bulvar ərazisində qeydə alınıb. Belə ki, ərazidə tikilən hündürmərtəbəli yaşayış binasında fəhlə işləyən Abşeron rayon sakini, 1991-ci il təvəllüdlü Qasımov Behruz Akif oğlu 8-ci mərtəbədən ehtiyatsızlıqdan yıxılıb. O, aldığı xəsarətdən hadisə yerindəcə dünyasını dəyişib. Faktla bağlı araşdırma aparılır. (APA)

## Mağazadan spirtli içki oğurlayan şəxs yaxalanıb



Xəzər Rayon Polis İdarəsinin 1-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 14-də rayon ərazisindəki mağazaların birindən 1500 manat dəyərində spirtli içki və tütün məmulatı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş V.Əliyev yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi rayonunda aprelin 19-da paytaxt sakini R.Ramazanovanın çantasından 200 manat oğurlamaqda şübhəli bilinən Sumqayıt şəhər sakini A.İsmayılova rayon polis idarəsinin 4-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktlarla bağlı araşdırmalar davam edir.

## “Kurtlar vadisi pusu”nun aktyoru vəfat etdi



“Kurtlar vadisi pusu” serialında Ustad Ronald obrazı ilə daha da məşhurlaşan aktyor Umut Demirdelen vəfat edib. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə teatr aktyoru Nedim Saban məlumat verib.

Xroniki ağciyər xəstəliyi səbəbindən xəstəxanaya yerləşdirilən U.Demirdelen orada dünyasını dəyişib. Qeyd edək ki, 67 yaşlı aktyor “Yaprak dökümü”, “En son babalar duyar”, “Payitaht Abdülhamit”, “Söz” kimi seriallarda da rol alıb.

## Koutinyo “Çelsi”yə keçir?



“Barselona”nın futbolçusu Filippe Koutinyo “Çelsi”yə keçməyə yaxındır. “Sport.es”ə istinadən xəbər verir ki, London klubu braziliyalı yarımmüdafiəçinin transferində digər klublarla mübarizədə favoritdir. “Çelsi”nin 27 yaşlı futbolçu ilə aktiv danışıqlar apardığı bildirilir. Qeyd edək ki, icarə əsasında “Bavariya”da çıxış edən Koutinyo bu mövsüm 32 oyun 9 qol vurub, 8 qol ötürməsi edib.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600